AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 1 (1401), 8 - 14 yanvar 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.

## Azərbaycan Gimnastika Federasiyası 2018-ci ili uğurla yola salıb

Ötən il Azərbaycan Gimnastika Federasiyası (AGF) üçün mühüm uğurlarla yadda qalıb. Gimnastika növləri üzrə yığma komandalarımız ötən il beynəlxalq yarışlarda 26-sı qızıl, 15-i gümüş və 44-ü bürünc olmaqla ümumilikdə, 85 medal qazanıb.

2018-ci ildə Bakıda gimnastikanın üç növü üzrə Dünya kuboku yarışları təşkil olunub. Əvvəlcə 25 ölkədən 100-dən çox gimnastın iştirakı ilə idman gimnastikası, sonra isə bədii gimnastika və AGF-in ilk dəfə təşkil etdiyi akrobatika gimnastikası üzrə Dünya Kuboku yarışları təşkil edilib. Bədii gimnastika üzrə yarışda 26, akrobatika üzrə yarışda isə 7 ölkə iştirak edib.

(ardı 2-ci səhifədə)

## Bu il ölkəmiz bir sıra mühüm beynəlxalq yarışlara ev sahibliyi edəcək




2018-ci il ölkəmiz üçün idman sahəsində çox uğurlu il olub. Ötən il olduğu kimi, 2019-cu ildə də Azərbaycanda bir sıra mühüm idman tədbirlərinin keçirilməsi nəzərdə tutulur.

Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ötən il respublikamızda Formula-1 Azərbaycan Qran-Prisi, velosiped idmanının BMX növü və cüdo üzrə dünya çempionatları, gimnastika növləri üzrə dünya kubokları, Avropa çempionatı, Beynəlxalq Gimnastika Federasiyasının 82-ci Konqresi, Dünya Antidopinq Agentliyinin Təsisçilər Şurası və İcraiyyə Komitəsinin iclası, Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin XX Qlobal Forumu çərçivəsində müxtəlif idman növləri üzrə yarışlar və digər mühüm beynəlxalq turnirlər və tədbirlər yüksək səviyyədə təşkil olunub. Şəhərimizə gələn idmansevərlər ölkəmizdən xoş təəssüratlarla ayrılıblar. Azərbaycanın mötəbər idman yarışlarına uğurla ev sahibliyi etməsi, idmançılarımızın beynəlxalq turnirlərdə qazandığı parlaq qələbələr respublikamızın idman ölkəsi olduğunu bir daha təsdiqləyib.

(ardı 2-ci səhifədə)

## Yığma komandamız final mərhələsinə doğru irəliləyir



Voleybol üzrə kişilərdən ibarət Azərbaycan yığması yanvarın 5-də Avropa çempionatının seçmə mərhələsi çərçivəsində növbəti qələbəsini qazanıb. Seçmə mərhələnin "G" qrupunda qərarlaşan millimiz Azərbaycan Voleybol Mərkəzində Lüksemburq yığmasını qəbul edib. Gərgin idman mübarizəsi şəraitində keçən oyun Azərbaycan millisinin 3:1 hesablı qələbəsi ilə başa çatıb.

Hazırda "G" qrupuna 11 xalla Yunanıstan yığması liderlik edir. Azərbaycan millisi (8 xal) ikinci, İsveç yığması (5 xal) üçüncü, Lüksemburq (3 xal) komandası isə sonuncu yerdədir.

Voleybolçularımız qrupda sonuncu oyununu yanvarın 9-da səfərdə İsveç millisinə qarşı keçirəcəklər.

Kişi voleybolçular arasında voleybol üzrə 31-ci Avropa çempionatının ötən ilin avqustunda start verilən seçmə mərhələsi yanvarın 9-da başa çatacaq. Təsnifat yarışlarında iştirak edən 26 komanda yeddi qrupda mübarizə aparır. Seçmə mərhələnin yekununda 12 komanda - 7 qrupun hər birinin qalibləri və qrup ikinciləri arasında ən yaxşı göstəricilərə sahib olan beş komanda Avro-2019-un final mərhələsinə vəsiqə qazanacaq.

Final mərhələsinin təşkilatçıları olan 4 komanda - Fransa, Sloveniya, Belçika və Hollandiya yığmaları, habelə əvvəlki Avropa çempionatının yekunlarına əsasən ən yaxşı nəticə göstərmiş Rusiya, Almaniya, Serbiya, İtaliya, Bolqarıstan, Çexiya, Polşa və Türkiyə milliləri seçmə mərhələdə iştirak etməkdən azad olunublar.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

## Sağlam həyat tərzi xoşbəxt gələcəyin təminatıdır

Səh.4

## Stolüstü tennisçilərimizdən iki medal



Budapeştdə keçirilən stolüstü tennis üzrə yeniyetmələr arasında beynəlxalq turnirə yekun vurulub. Turnirdə qızlardan ibarət komandamız uğurla çıxış edərək iki medal qazanıb. Yarışların ikinci günündə fərdi birincilikdə mübarizə aparan Arzu Aslanova gümüş medala sahib olub. Bundan əvvəl isə Arzu Aslanovanın, Mərziyyə Nurmətovanın və Aysu Ağayevanın yer aldığı komanda fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.

Turnirdə oğlanlardan və qızlardan ibarət komandalarımız məşqçilər Elnur Hidayətzadənin və Ramil Cəfərovun rəhbərliyi ilə mübarizə aparıb.

## Anons

*DGK İSM "Gömrükçü" İK-nın ötənilki fəaliyyəti yüksək qiymətləndirilib* Səh.2

Azərbaycan Ədalətli Oyunlar Komissiyasının mükafatları sahiblərinə təqdim olunub Səh.3

AİJA ilin ən yaxşılarının adlarını açıqlayıb Səh. 3

*Yığma komandamız təlim-məşq düşərgəsində iştirak edib* Səh. 6

*Karateçilərimiz Xorvatiyada qüvvələrini sınayacaqlar* Səh. 3

Uşaqlar arasında futbol turniri keçirilib Səh. 7

## BOK-un komissiyası təcili tədbirlər görməyə çağırıb

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) idmançılar komissiyası Rusiya Antidopinq Agentliyinə qarşı təcili tədbirlər görməyə çağırıb. BOK-un rəsmi saytında yerləşdirilmiş bəyanatda bildirilib ki, Rusiya hökuməti müəyyən olunmuş müddətə - dekabrın 31-dək Moskvadakı Antidopinq laboratoriyasının məlumat bazasına girişi təmin etməyib.

Ötən ilin sentyabrında Dünya Antidopinq Agentliyinin İcraiyyə Komitəsi Rusiya Antidopinq Agentliyinin 2015-ci ildə ləğv edilmiş statusunu bərpa etmişdi. Bunun müqabilində agentlik federal təhqiqatla bağlı möhürlənmiş Moskvadakı Antidopinq laboratoriyasının məlumat bazasına girişi təmin etməli idi. Lakin bu baş vermədiyi üçün Rusiya agentliyi yenidən statusundan məhrum ola bilər. Bundan başqa, rusiyalı idmançıları xarici ölkələrdə yarışlarda iştirakdan və Rusiyanı beynəlxalq yarışlara ev sahibliyi etməkdən kənarlaşdıra bilərlər.

## *Avropa çempionatı Minskdə keçirilə bilər*

Minsk 2024-cü ildə atletika üzrə Avropa çempionatına ev sahibliyi etmək üçün namizədliyini irəli sürüb. Qitə birinciliyini keçirmək üçün Tampere (Finlandiya), Heteborq (İsveç) və Sileziya (Polşa) şəhərləri də namizəddir. Yanvarın sonunda Avropa Atletika Assosiasiyasının Şurası 4 namizəd şəhərdən 3-nü seçəcək və mübarizə ikinci mərhələdə davam edəcək.



Belarus tərəfi yarışın Minskdəki "Dinamo" stadionunda keçirilməsini təklif edib. Həmin stadion cari ildə təşkil olunacaq ikinci Avropa Oyunlarında atletika yarışlarına ev sahibliyi edəcək.



# Azərbaycan Gimnastika Federasiyası 2018-ci ili uğurla yola salıb

(əvvəli 1-ci səhifədə)

Dünya kuboku yarışları ilə bərabər, ötən il Milli Gimnastika Arenasında bədii gimnastika üzrə "AGF Junior Trophy", "GymBala" adlı beynəlxalq turnirlər, həmçinin Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən tanınan aerobika gimnastikası üzrə açıq Azərbaycan çempionatı təşkil edilib.

Bakıda ilk dəfə təşkil olunan batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə Avropa çempionatı ilin ən yaddaqalan yarışlarından biri olub. 25 ölkədən 400-dən çox gimnastın gərgin mübarizəsi şəraitində keçən bu yarış yüksək təşkilatçılığı ilə də fərqlənib. Mixail Malkinin Avropa çempionu adını qazanması, sinxron cütlüyümüz Veronika Zemlyanaya ilə Svetlana Makştaryovanın gümüş medala layiq görülmələri bu turniri daha da yaddaqalan edib.



Ötən ilin mühüm uğurlarından biri də İspaniyanın Qvadalaxara şəhərində keçirilmiş bədii gimnastika üzrə qitə birinciliyində əldə edilib. Gənclərin yarışında təmsilçimiz Arzu Cəlilova, qrup hərəkətləri komandalarının mübarizəsində Aliyə Paşayeva, Siyana Vasileva, Zeynəb Hümmətova, Diana Əhmədbəyli və Ayşən Bayramovadan ibarət beşlik bürünc medala sahib olub.

Bu turnirlərlə yanaşı, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının idman gimnastikası üzrə təsnifat yarışları da Milli Gimnastika Arenasında keçirilib. Oktyabrda Argentinanın Buenos-Ayres şəhərində təşkil edilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında bədii gimnastımız Yelizaveta Luzan gimnastika növləri üzrə qarışıq komanda yarışında qızıl medala sahib olub. Həmçinin bu yarışlarda milli komandamızın üç hakimi - Nigar Abdusəlimova (bədii gimnastika), Rza Əliyev (kişi idman gimnastikası) və Kamil Quliyev (batut gimnastikası) çıxışların qiymətləndirilməsində iştirak ediblər.

Azərbaycan gimnastları ötən il birinci "European Gym for Life Challenge" yarışında da çıxış edərək 37 komanda arasında ən yaxşılardan biri seçilib və qızıl medala layiq görülüb. Ötən il ilk dəfə olaraq, "TeamGym" komandamız da Portuqaliyanın Odivelaş şəhərində baş tutan 12-ci Avropa çempionatında iştirak edib.

Ötən "Challenge" seriyasına aid bütün Dünya kuboku yarışlarında 3 top - 2 iplə kompozisiyaların yekun xallarına əsasən, Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandasına, həmçinin son iki il ərzində təşkil olunmuş batut gimnastikası və tamblinq üzrə Dünya kuboklarının tamblinq üzrə yarışlarında yekun xallara əsasən Mixail Malkinə FIG-in xüsusi kubokları təqdim edilib.

Yarışlarla yanaşı, 2018-ci il federasiya üçün digər tədbirlərin təşkili ilə də yadda qalıb. Belə ki, ötən il ərzində FIG Akademiyasının bədii gimnastika, kişi idman gimnastikası və aerobika gimnastikası üzrə məşqçilik kursları da paytaxtımızda təşkil olunub.

Dekabrın 2-3-də isə Bakıda FIG-in ali orqanı olan Konqresin 82-ci iclası keçirilib. AGF-in ilk dəfə ev sahibliyi etdiyi bu mötəbər tədbirdə 111 ölkədən 300-dən çox nümayəndə iştirak edib. Konqresin iclasında parkur idmanının rəsmi şəkildə FIG-in fəaliyyətinə daxil edilməsi, həmçinin gimnastikada bütün iştirakçıların təhlükəsizliyinin təmini, intizam və FIG-in etika prinsiplərinin uyğunluğuna nəzarət bölmələrindən ibarət Etika Fondunun yaradılması və bir sıra digər məsələlərlə bağlı beynəlxalq qurumun nizamnaməsinə dəyişikliklər olunub. Konqresdən sonra Bakıda parkur idman növü ilə yaxından tanış olmaq üçün təqdimat xarakterli kurslar keçirilib. Kurslarda Azərbaycan da daxil olmaqla, 13 ölkənin nümayəndələri iştirak ediblər.

Həmçinin FIG-in kişi və qadın idman gimnastikası, Avropa Gimnastika İttifaqının (UEG) batut gimnastikası üzrə texniki komitələrinin, UEG Prezident Şurasının iclasları və Afrika Gimnastika İttifaqının ümumi yığıncağı da Bakıda keçirilib. Yüksək fəallığı FIG tərəfindən qiymətləndirilən AGF "Mükafatlandırılan federasiyalar"ın siyahısına daxil olub və bu dəfə reytinq siyahısında ilk pillədə qərarlaşıb.

Federasiyanın nailiyyətləri bununla məhdudlaşmayıb. AGF idman yarışlarının yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Azərbaycan Milli Olimpiya Komitəsi və Gənclər və İdman Nazirliyi tərəfindən də mükafata layiq görülüb. Həmçinin bədii gimnastika üzrə milli komandamızın baş məşqçisi Mariana Vasileva "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi" seçilib. "İlin ən yaxşı idmançıları" nominasiyasında on qalib idmançı arasında tamblinqçi, Avropa çempionu Mixail Malkin və Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil edən bədii gimnast Yelizaveta Luzan da yer alıblar.

İlin son günlərində isə Milli Gimnastika Arenasında yarış abhavası əyləncəli şou proqramlarla əvəzlənib. 2017-ci ildə olduğu kimi, ötən ildə tamaşaçılara məşqçilərin ifasında "Qızıl yaş" şousu təqdim olunub. Dekabrın 23-də federasiya ənənəsinə sadiq qalaraq, gimnastikasevərlərə əsl idman bayramı sevincini yaşadıb. "Ağbəniz və 7 cırtdan" nağılının motivləri əsasında hazırlanan Yeni il şousu rəngarəngliyi ilə tamaşaçılarda xoş təəssürat yaradıb.

Ümumiyyətlə, 2018-ci ildə Azərbaycan Gimnastika Federasiyası öz qapılarını 111 ölkənin nümayəndələrinə açıb. Ötən il gimnastika növləri üzrə tədbirlərdə iştirak etmək üçün 2 mindən artıq xarici nümayəndə Azərbaycan paytaxtında səfərdə olub. Həmçinin AGF-in təşkil etdiyi beynəlxalq yarışlarda 900-dən çox əcnəbi gimnast gücünü sınayıb. İl ərzində federasiyanın keçirdiyi beynəlxalq yarışlara cəlb olunan könüllülərin sayı rekord həddə çataraq, 600 nəfər təşkil edib. Habelə ötən il dünyanın müxtəlif qitələrində 17 ölkədən 173 nümayəndə səmərəli təlim-məşq toplanışı üçün məhz Milli Gimnastika Arenasını seçib. Milli Gimnastika Arenası bir il ərzində ümumilikdə, 15 mindən çox tamaşaçı qəbul edib.



## Bu il ölkəmiz bir sıra mühüm beynəlxalq yarışlara ev sahibliyi edəcək

(əvvəli 1-ci səhifədə)

Bu il də Azərbaycan idman ölkəsi statusunu qoruyub saxlamaq niyyətindədir. Odur ki, 2019-cu il Azərbaycan müxtəlif idman növlərini əhatə edən önəmli beynəlxalq idman yarışlarına və irimiqyaslı tədbirlərə ev sahibliyi edəcək. 2019-cu ildə ölkəmizdə keçiriləcək və dünyanın diqqətini cəlb edəcək ən əhəmiyyətli idman tədbirlərindən biri Formula-1 Azərbaycan Qran-Prisi olacaq. Bu möhtəşəm yarışın Bakıda təşkili aprelin 26-28-də planlaşdırılır.

Cari il Azərbaycan, həmçinin gimnastika üzrə bir neçə irimiqyaslı yarışa ev sahibliyi edəcək. Yarışlara fevralın 16-17-də batut gimnastikası üzrə dünya kuboku ilə start veriləcək. Martın 14-17-də müxtəlif ölkələrin idman gimnastları Azərbaycanda Dünya kuboku uğrunda mübarizə aparacaqlar. Aprelin 26-28-də bədii gimnastika üzrə dünya kuboku, mayın 17-19-da isə bu növdə Avropa çempionatı respublikamızda keçiriləcək. Mayın 24-26-da qitənin ən güclü aerobika gimnastları paytaxtımızda toplaşacaqlar. İyulun 20-28-də ölkəmizdə keçiriləcək Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində idman gimnastikası üzrə yarışlar da məhz Milli Gimnastika Arenasında təşkil olunacaq. İlin sonuncu yarışı sentyabrın 16-22-də keçiriləcək bədii gimnastika üzrə dünya çempionatıdır. Bakıda keçiriləcək hər üç dünya kuboku, eləcə də, dünya çempionatı Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

Bundan başqa, bu il keçiriləcək digər böyük idman yarışları sırasında Bakıdakı UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyunu da yer alır. Bu, beynəlxalq idman federasiyalarının respublikamızda aparılan işlərə, həmçinin idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin daha bir təzahürüdür.

İyulun 20-28-də Azərbaycanda daha bir mötəbər yarış - Avropa Gənclər Olimpiya Festivalı keçiriləcək. Bu mötəbər festivalın Bakıda layiqincə, uğurla və yüksək səviyyədə təşkilini təmin etmək məqsədilə Prezident İlham Əliyevin 2018-ci il 15 may tarixli Sərəncamına əsasən geniştərkibli Təşkilat Komitəsi yaradılıb.

Avropanın 50 ölkəsindən 2 mindən çox atletin və 1500-dən çox nümayəndənin qatılacağı mötəbər turnir idmanın on növü üzrə 12 idman qurğusunda keçiriləcək. Festivalın təşkilinə 2500-dən çox könüllü cəlb olunacaq. Son illər Azərbaycanda beynəlxalq miqyaslı tədbirlərin uğurlu təşkilinin ənənəvi hal alması Avropa Gənclər Olimpiya Festivalının da yüksək səviyyədə keçiriləcəyinə əminlik yaradır.

2019-cu ildə ölkəmiz üçün gözlənilən mühüm idman tədbirlərinin sırasına mayın 10-12-də keçiriləcək cüdo üzrə "Böyük dəbilqə" beynəlxalq turniri, mayın 13-15-də paracüdo üzrə Qran-Pri yarışı, iyunun 6-9-da təşkil olunacaq badminton üzrə "Azerbaijan International-2019" Dünya kuboku daxildir.

Ümid edirik ki, böyük idman yarışları və tədbirləri bu il də Azərbaycanın idman həyatında növbəti mühüm hadisə olacaq. Bütün bunlar, eləcə də 2019-cu ildə idman və bədən tərbiyəsi sahəsində görülməsi nəzərdə tutulan digər işlər, Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür. Azərbaycanın mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməsi bu sahənin, eləcə də, həmin idman növlərinin inkişafına, idmanın kütləviliyinin təmin olunmasına xidmət edir.

## DGK İSM "Gömrükçü"İK-nın ötənilki fəaliyyəti yüksək qiymətləndirilib



***Dekabrın 28-də Dövlət Gömrük Komitəsinin (DGK) İdman Sağlamlıq Mərkəzinin "Gömrükçü" idman klubunda 2018-ci ilin yekunları ilə bağlı tədbir keçirilib.***

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru, gömrük xidməti polkovniki Xəzər İsayev, DGK-nın Sosial İnnovasiyalar və Analitik Təhlil İdarəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Vüqar Əliyev iştirak ediblər.

Diqqətə çatdırılıb ki, İlham Əliyevin 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkəmizdə idmana və bədən tərbiyəsinə diqqət daha da artırıb. Azərbaycanın dünyanın idman mərkəzlərindən birinə çevrildiyini deyən çıxışçılar qeyd ediblər ki, dövlətimizin başçısının idmanı sevməsi, idmançılara xüsusi həssaslıqla yanaşması, yeni Olimpiya İdman komplekslərinin və idman bazalarının yaradılması haqqında qərarları ölkəmizdə idmanın kütləviləşməsinə əlverişli şərait yaradıb.

Qeyd olunub ki, DGK İSM-in nəzdində fəaliyyət göstərən "Gömrükçü" İdman Klubunda 23 idman növü üzrə 540 idmançı 22 məşqçi-müəllimin rəhbərliyi altında idmanın sirlərinə yiyələnir. İdman növlərindən 11-i Olimpiya, 12-si qeyri-Olimpiya idman növüdür. Hazırda klubda Olimpiya idman növlərindən boks, sərbəst güləş, yunan-Roma güləşi, taekvondo, cüdo, üzgüçülük, stend atıcılığı, idman dırmanması, karatenin WKF növü, futbol, qeyri-Olimpiya idman növlərindən isə kikboksinq, çerlidinq, kempo-karate və kobudo, kik-cutsi, uşu-sanda, muay-tay, pauerliftinq, kontakt-karate, budo, şaolin döyüş sənəti və şahmat üzrə idmançılar yetişdirilir. Klubda 9 Əməkdar Məşqçi, 4 Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi çalışır.

Tədbirdə çıxış edənlər ötən ilin Azərbaycan idmanı üçün əlamətdar olduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, bu il Azərbaycan idmançıları dünya və Avropa çempionatlarında, eləcə də, beynəlxalq səviyyəli yarışlarda ümumilikdə 753 medal qazanıblar. Bildirilib ki, qazanılan medallarda "Gömrükçü" idman klubunun təmsilçilərinin də böyük payı var. Belə ki, klubun təmsilçiləri 2018-ci ildə Avropa və dünya çempionatlarında, beynəlxalq və yerli yarışlarda 209 medal qazanıblar.



Sonra klubun 2018-ci il üçün hesabatı dinlənilib.

Diqqətə çatdırılıb ki, ötən il şaolin, güləş, boks, karate, futbol, futzal, cüdo, idman dırmanması, taekvondo, sambo idman növləri üzrə müxtəlif yaş qruplarında 18 açıq çempionat və birincilik keçirilib. Bu turnirlər arasında ilk dəfə təşkil edilən idman dırmanması üzrə beş ölkənin - Azərbaycan ilə yanaşı, İran, Rusiya, Türkiyə və Gürcüstan təmsilçilərinin iştirakı ilə keçirilən beynəlxalq açıq birincilik xüsusi qeyd olunub.

Tədbirin sonunda il ərzində fərqlənmiş idmançılar və onların məşqçiləri diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

## Azərbaycan Ədalətli Oyunlar Komissiyasının mükafatları sahiblərinə təqdim olunub

***Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ilin idman yekunlarına dair tədbir keçirilib.***

Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, idman federasiyalarının rəhbərləri və idmançılar iştirak ediblər.

Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsindən sonra 2018-ci il ərzində idmançılarımızın qazandıqları nailiyyətlərə və ölkəmizdə keçirilən mötəbər idman yarışlarına dair videoçarx nümayiş olunub.

Sonra müxtəlif nominasiyalar üzrə 2018-ci ilin ən yaxşıları mükafatlandırılıb

Tədbir çərçivəsində Milli Olimpiya Komitəsinin nəzdində fəaliyyət göstərən Ədalətli Oyunlar Komissiyasının 2018-cı ilin yekunlarına əsasən təsis etdiyi mükafatlar sahiblərinə təqdim olunub.

Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası tərəfindən 2018-ci ilin yekunlarına əsasən təsis olunan mükafatlar:

1. "Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi"

Rövnəq Abdullayev, Azərbaycan Cüdo Federasiyasının Prezidenti

2. "Ədalətli oyun prinsiplərinin ən yaxşı təbliğatçısı"

Orxan Qoca, AzƏOK-un yeni loqosunun müəllifi

3. "Ədalətli oyun prinsiplərinə sadiq hakim"

Emin Şaxtaxtinski, atletika üzrə hakim

4. "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi"

Mariana Vasileva, bədii gimnastika üzrəAzərbaycan yığma komandasının baş məşqçisi

5. "Ədalətli oyun prinsiplərinə sadiq idmançı"

Eldəniz Əzizli, güləş üzrə dünya və Avropa çempionu

6. "Ədalətli oyun prinsiplərinə sadiq səfir"

Fərid Mansurov, Olimpiya çempionu

## AİJA ilin ən yaxşılarının adlarını açıqlayıb

Azərbaycan İdman Jurnalistləri Assosiasiyası çoxillik ənənəsinə sadiq qalaraq 2018-ci ilin idman laureatlarının adlarını açıqlayıb.

Müxtəlif nominasiyalar üzrə tərtib olunan siyahıda ilin idmançısı, komandası, məşqçisi, idman hakimi və idman azarkeşinin adları açıqlanıb. İlin qadın idmançısı nominasiyasında İrina Zaretska, Mariya Stadnik, Yelizaveta Luzan, ilin kişi idmançısı nominasiyasında isə Eldəniz Əzizli, Şəhriyar Məmmədyarov və Vüqar Talıbov qalib olub. Futbol üzrə "Qarabağ" klubu ilin komandası seçilib. Qurban Qurbanov, Şahin Donat və Vüqar Məmməd ilin məşqçisi, Vahid Nəzərov isə idman hakimi nominasiyasında qalib elan olunub.

Bundan başqa, idman mediası yaradıcı əməkdaşlarının peşəkar birliyi ilin idman jurnalisti, fotoreportyoru, qəzeti, telekanalı, radiosu, idman mətbuat xidməti, internet portalı, idmanı ən yaxşı işıqlandıran informasiya agentliyi, idman xadimi və idman təşkilatçısı nominasiyası üzrə qaliblərin də adları müəyyənləşib.

Mükafatlandırılanlar arasında qəzetimizin əməkdaşı da yer alıb.

## Kikboksinqçilər Şağanda bir araya gələcəklər

Yanvarın 12-13-də Şağan Olimpiya İdman Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş "Vətən" kikboksinq klubunun açıq birinciliyi keçiriləcək. Azərbaycan Kikboksinq Federasiyası, Suraxanı Rayon Gənclər və İdman İdarəsi və "Vətən" idman klubunun təşkilatçılığı ilə keçiriləcək yarışda əsas məqsəd kadetlər, yeniyetmələr və gənclər arasında kikboksinqin inkişafı, bu idman növünün kütləviliyinə nail olmaq, gənclərin sağlam və milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi, eyni zamanda idman klubunun yığma komandasının komplektləşdirilməsindən ibarətdir. Komandaların gəlmə və çəki günü yanvarın 12-i saat 16.00-dan 20.00-a kimi "Vətən" kikboksinq klubunun zalında keçiriləcək. Yarış Beynəlxalq WAKO qaydalarına uyğun Lou-Kik və Kik-layt versiyaları üzrə təşkil olunacaq.



## *Ötən il 35 antidopinq qayda pozuntusu qeydə alınıb*

2018-ci ildə AMADA tərəfindən 35 antidopinq qayda pozuntusu qeydə alınıb. Bu qayda pozuntuları müxtəlif idman növləri üzrə qeyri-əlverişli analiz nəticəsində aşkarlanıb. Əlavə olaraq, ağırlıqqaldırmada 1 atipik nəticə aşkar edilib.

Bu barədə məlumat Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) 2018-ci ilə dair illik hesabatında qeyd olunub.

Hesabatda bildirilib ki, il ərzində 1 dəfə dopinq nəzarətindən imtina, 8 dəfə isə məkan məlumatı pozuntusu halları baş verib. Qeyri-əlverişli analiz nəticələrinin bir çoxunu anabolik steroid təşkil edib və idmançıların 25 faizi azyaşlı olub. Ümumilikdə 2018-ci ildə 35 antidopinq qayda pozuntusu baş verib və 35 yekun qərar açıqlanıb.

AMADA
STAY CLEAN

olimpnews.az - sizin saytınız




## *Triatlonçularımız beynəlxalq turnirlərə hazırlaşırlar*

Triatlon üzrə Azərbaycan millisi yeni mövsümün hazırlığına start verib.

Baş məşqçi Sergey Yaçenkonun rəhbərliyi altında millimizin üzvləri Rostislav Pevtsov və Kseniya Levkovskaya Kiprdə təlim-məşq toplanışında iştirak edirlər.

Təlim-məşq toplanışı reytinq xarakterli turnirlərə hazırlıq xarakteri daşıyır.



## Güləş Federasiyası ili uğurla yola salıb

Azərbaycan Güləş Federasiyası (AGF) 2018-ci ilə uğurla yekun vurub. Federasiya ilin əvvəlində müəyyən çətinliklərlə üzləşsə də, bu vəziyyətdən üzüağ, alnıaçıq çıxmağı bacarıb.

Kadr islahatları nəticəsində 2018-in əvvəlində baş katib vəzifəsinə Orxan Məmmədov təyin olundu. Eyni zamanda AGF-nin 1-ci vitse-prezident postuna Firdovsi Umudov gətirildi. May ayından etibarən isə Dünya Güləş Birliyinin (UWW) İcraiyyə Komitəsinin üzvü Namiq Əliyev yenidən AGF-yə qayıtdı. Hazırda Namiq müəllim federasiyada prezidentin səlahiyyətlərini icra edir. Məhz onun AGF-yə qayıdışından sonra dövlətin də ciddi dəstəyi ilə maliyyə və digər problemlər aradan qaldırıldı. Yığmalarda da məşqçi dəyişiklikləri həyata keçirildi. Yayda yunan-Roma güləşi üzrə yeniyetmələrdən ibarət millidə Taleh İsrafilov böyük məşqçi, Nazim Əhmədovla Rasim Ağayev isə məşqçi kimi fəaliyyət göstərməyə başladısa, azyaşlı yeniyetmələrlə iş Əbülfət Məmmədov və İlham Vəzirova tapşırıldı. İlin sonunda isə sərbəst güləş üzrə böyüklərdən ibarət yığmanın baş məşqçisi vəzifəsinə Saypulla Absaidov gətirildi. Firdovsi Umudov isə AGF-nin sərbəst güləş üzrə vitse-prezidenti kimi fəaliyyətini davam etdirir.

Geridə qoyduğumuz il ədalət təmsilçilərimiz üçün də uğurlu keçdi. Asif Şirəliyev və Sədi Quliyev I-S kateqoriyasına sahib oldular.

Bu isə o deməkdir ki, hər iki hakimimiz həmin kateqoriyada Hicran Şərifov və İntiqam Alıyevlə birgə Tokio-2020 Olimpiadasında referi kimi ölkəmizi təmsil edə bilər. Xatırladaq ki, indiyə qədər güləş tarixində eyni vaxtda 4 Olimpiya kateqoriyalı hakimimiz olmamışdı. Abdul Nuriyevlə Elman İsmayılov da ötən il I dərəcəyə sahib çıxıb. Onlarla yanaşı, daha öncədən bu kateqoriyada olan Natiq Hacıyev gələcəkdə imtahanlardan uğurla keçsə, I-S dərəcəli hakimlərin sayı artacaq.

### Medalların izi ilə

Əsas maraq doğuran isə il ərzində əldə olunan nəticə, yarışlarda qazanılan medallardır. 2018-ci ildə güləşçilərimiz ümumilikdə, beynəlxalq turnirlərdə 285 (72 qızıl, 84 gümüş, 129 bürünc) medal qazanıb. Düzdür, 2017-ci illə müqayisədə 9 medal az əldə olunub. Ancaq unutmayaq ki, həmin il 23 medal Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında əldə edilib. Ötən il Avropa və dünya çempionatları, eləcə də, Yeniyetmələrin III Olimpiya Oyunlarında ümumilikdə, 89 medal qazanılıb. İlboyu sərbəst güləşçilər 157, yunan-Roma güləşçiləri 93, qadınlar isə 35 dəfə fəxri kürsüyə qalxıblar. Yaş qrupları üzrə bölsək, böyüklərə 103 (32 qızıl, 29 gümüş, 42 bürünc), gənclərə 55 (11 qızıl, 17 gümüş, 27 bürünc), yeniyetmələrin payına isə 127 (29 qızıl, 38 gümüş, 60 bürünc) medal düşür. Böyüklərin Avropa çempionatında qazanılan 18 medal Azərbaycan güləş tarixində növbəti rekord oldu. Buna qədər ən çox medalı 2011-ci ildə keçirilən anoloji yarışda (14 medal) əldə edilib. Dünya çempionatında qazanılan 5 medal daha çox yunan-Roma güləşçilərini sevindirdi. Çünki komanda hesabında 4-cü yeri tutan "klassiklər" builki Dünya kuboku yarışlarında iştirak hüququ qazandı. Yeri gəlmişkən, ötən il Dünya kubokunda ölkəmizi yalnız sərbəst güləşçilər təmsil etdilər. Komanda Firdovsi Umudovun rəhbərliyi altında ABŞ-dan gümüş medalla döndü. İkinci dəfə keçirilən 23 yaşınadək güləşçilər arasında dünya çempionatında qazanılan 1 qızıl, 4 gümüş, 2 bürünc medal diqqəti çəkdi. Müqayisə üçün 2017-ci ildə ilk dəfə bu yaş qrupu üzrə təşkil olunan mundialdakı qazancımızın 5 "bürünc"dən ibarət olduğunu qeyd etmək lazımdır. Əlbəttə, Yeniyetmələrin Yay Olimpiya Oyunlarını da unutmaq olmaz. Güləş Azərbaycanda bu yaş qrupunda da lider olduğunu qazandığı 1 qızıl, 1 bürünc medalla növbəti dəfə sübut etdi.

### AGF diqqət mərkəzində

İl ərzində qazanılan uğurlar Gənclər və İdman Nazirliyinin (AGİN) ilin yekunlarıyla bağlı keçirdiyi mərasimdə də əksini tapdı. Təsadüfi deyil ki, AGF ilin ən yaxşı idman federasiyası seçildi. İlin ən yaxşı idmançıları arasında 3 güləşçimiz - Eldəniz Əzizli, Cəbrayıl Həsənov və Mariya Stadnik yer aldı. Eldənizin şəxsi məşqçisi Vaqif Feyzullayev ilin məşqçisi seçildi. AGF-nin İdman şöbəsinin müdiri Yaqub Məmmədov Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi adına sahib çıxdı. 2018-də Avropa və dünya çempionu olan Əzizli həm də İdman Araşdırmalar Mərkəzi və "Futbol+" qəzetinin keçirdiyi sorğu nəticəsində ilin ən yaxşı idmançısı ünvanını qazandı.

### Yeni ilə yeni ümidlərlə

2019 güləş üçün məsuliyyətli illərdəndir. Bu il keçiriləcək 2-ci Avropa Oyunları və Avropa Gənclərinin Olimpiya Festivalının proqramında güləş də yer alıb. İlin əsas yarışı - Astanada təşkil olunacaq dünya çempionatı isə Tokio-2020 Olimpiadasına lisenziya verən ilk turnirdir. Mundialda Olimpiya çəkilərində ilk "5-lik"də yer alanlar Tokio-2020-yə vəsiqə qazanacaqlar. Deməli, bu il daha uğurlu çıxış etmək vacibdir. AGF rəhbərliyi, məşqçilər və güləşçilər də bu məsuliyyəti dərk edir və Azərbaycanı beynəlxalq yarışlarda layiqli təmsil etmək üçün səylə çalışırlar.

## İdman dırmanması üzrə yığmamızın üzvü Gürcüstanda gümüş medal qazanıb

Dekabrın 27-28-də Tbilisi şəhərində yeniyetmələr arasında Gürcüstanın açıq çempionatı keçirilib. Azərbaycanın yığma komandası bu yarışda 3 idmançı ilə təmsil olunub. Boldrinq növü üzrə keçirilən yarışda məşqçi Çingiz Tağızadənin rəhbərliyi altında Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin "Gömrükçü" İdman Klubunun idmançısı Mədinə Abdullayeva uğurla çıxış edib. 2009-2010-cu illər təvəllüdlü idmançılar arasında qüvvəsini sınayan kiçikyaşlı idmançımız gümüş medala sahib çıxıb. Xatırladaq ki, Mədinə Abdullayeva ötən il ölkəmizdə idman dırmanmasının çətinlik növü üzrə keçirilən DGK İSM "Gömrükçü" İK-nın açıq beynəlxalq birinciliyində də gümüş medal qazanmışdı.



## Karateçilərimiz Xorvatiyada qüvvələrini sınayacaqlar

Yanvarın 11-də Xorvatiyada karate üzrə 28-ci Qran-Pri yarışı start götürəcək. Kumite və kata üzrə Qran-Pridə Azərbaycanın yeniyetmə və gənclərdən ibarət milli komandası da iştirak edəcək.




Fərdi xarakterli turnirə yanvarın 13-də yekun vurulacaq.

Ənənəvi Qran-Pri turniri Xorvatiyada hər il keçirilir. Ötən il yığma komandamız nüfuzlu turnirdə 2 qızıl, 2 gümüş və 4 bürünc olmaqla 8 medal qazanıb.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Sağlam həyat tərzi xoşbəxt gələcəyin təminatıdır

***Müasir dövrdə idman və bədən tərbiyəsinin inkişafı hər bir dövlətdə insanların sağlamlığı və mənəvi yüksəlişi ilə yanaşı, milli potensialın maksimum səmərəli reallaşdırılması, cəmiyyətin saflaşması və yetkinləşməsi, genefondun qorunub saxlanılması baxımından son dərəcə mühüm vasitə sayılır. İdman təkcə sağlamlıq yox, həm də sağlam düşüncə, saf niyyət deməkdir. İdmana, bədən tərbiyəsinə bağlı gənclərin yetişdirilməsi məqsədi isə Azərbaycanın sağlam, firavan sabahı uğrunda çoxşaxəli fəaliyyətin mühüm tərkib hissəsi kimi diqqəti çəkir. Dövlətimizin idman siyasətinin də əsasında məhz bir məqsəd dayanır: ölkə vətəndaşlarını istər fiziki, istər mənəvi baxımdan daim sağlam görmək.***

Uşaq və gənclər böyük enerji, həyata yeni baxış deməkdir. Ölkənin uşaq və gəncləri milli adət-ənənələrimizin daşıyıcısı, milli-mənəvi dəyərlərimizin qoruyucusu, cəmiyyətin aparıcı qüvvəsidir. Bu qüvvənin fiziki və mənəvi sağlamlığı xüsusi qayğı tələb edir və bu iş ölkəmizdə yüksək səviyyədə həyata keçirilir.

Fiziki sağlamlığın əsas amillərindən biri idmandır. İdmanla məşğul olan uşaq və ya gənc dözümlü, iradəli olur. Azərbaycan dövləti gənc nəslin bu cür keyfiyyətlərə malik olmasında maraqlıdır. Ölkəmizdə uşaq və gənclərə yaradılan şərait, inşa edilən müasir idman qurğuları məhz gələcəyimiz olan gənc nəslin sağlam şəkildə böyüməsi üçün nəzərdə tutulub. Hazırda istər Bakıda, istərsə də bölgələrdə fəaliyyət göstərən idman ocaqları ən müasir idman avadanlıqları ilə təchiz edilib.

## Uşaq və gənclərin idmana fəal surətdə cəlb olunması vacib amildir

Sağlam həyat tərzi sağlamlığın formalaşması, qorunması və möhkəmlənməsinə kömək edir. İnsanın həyat və dünyagörüşünün səviyyəsi, keyfiyyəti, həyat tərzi onun sağlamlığını müəyyən edən amillərdir. İnsanların rifah halını təmin edən amillərdən biri də onun nə dərəcədə sağlam olmasıdır. İnsanın sağlamlığı dedikdə bütövlükdə fiziki, mənəvi və sosial rahatlığı başa düşülür. Uşaq və gənclərin sağlamlığının mühafizəsi əsas məsələlərdən biridir. Bu sahədə elmi tədqiqatların aparılması millətin sağlamlığının möhkəmləndirilməsi və genofondun qorunması üçün vacib şərtlərdən biridir.



Müasir dövrdə ananın və onun uşağının sağlamlığının qorunması, həm də ölkə əhalisinin rifah halının yaxşılaşmasının vacib göstəricisidir. Araşdırmalar göstərir ki, müasir dövrdə sarsıntı şəraiti, əqli və fiziki yüklənmə kimi sosioloji-bioloji amillər sağlamlığa mənfi təsir edir. Bu amillər bioloji, yəni fiziki, cinsi, psixi, sosial inkişafın ayrı-ayrı komponentlərinin və onların harmoniyasının pozulmasına gətirib çıxarır. İnkişafın ayrı-ayrı komponentləri arasında əlaqənin və onların sistemlərarası harmoniyasının pozulması xəstəliklərin müalicəsini uğurla həyata keçirməyə mane olur.

Əlverişsiz ekoloji şərait, qidalanmada disbalans, emosional sarsıntılar, psixi pozğunluq, mübadilə pozuntuları anemiya xəstəliklərinin yaranmasına gətirib çıxarır. Müasir dövrdə gənclərin sağlamğında neqativ dəyişikliklər aşağıdakı hallarda müşahidə olunur: psixi pozuntu hallarının çoxalması, xroniki xəstəliklərin sayının artması, fiziki inkişaf göstəricilərinin aşağı düşməsi və s. Şübhəsiz ki, gənclərin belə neqativ hallarla üzləşməsi onları həyatdan küsdürür və nəticədə onlar hər şeyə biganə yanaşırlar. Belə gənclər istər cəmiyyət arasında, istərsə də evdə süst vəziyyətdə olur, həyatın gözəlliklərindən zövq ala bilmirlər. Əlbəttə, müasir dövrdə respublikamızda ən müasir tələblərə cavab verən tibb müəssisələri faliyyət göstərir. Belə müəssisələrdə bir sıra xəstəliklər müalicə olunur. Lakin ən gözəl hal odur ki, respublikamızda hər cür şəraiti olan çoxsaylı idman mərkəzləri, Olimpiya İdman kompleksləri yaradılıb. İstənilən xəstəliyə qalib gəlmək üçün idman qurğularına üz tutmaq daha məqsədəuyğundur. Çünki idman sağlamlığın rəhnidir. Bu ifadə əbəs yerə deyilməyib.



Dövlət tərəfindən gənclərin sağlam həyat tərzi sahəsində həyata keçirilən siyasət gənc vətəndaşların hüquqi, iqtisadi, təşkilati cəhətdən bütövlüyü və inkişafına xidmət edir. Bir sözlə, dövlətin gənclər siyasəti ölkənin gənc vətəndaşlarının sosial təfəkkürü və inkişafı üçün sosial-iqtisadi, hüquqi, təşkilati şərtləri təmin edir. Gənclik dövründə insanın həyatında əsas sosial hadisələr baş verir: təhsil, peşə seçimi, əmək fəaliyyətinin başlanması, nikaha daxil olma və s. Bu gün gənclərin əməyə hazır olması, vətəndaş və mənəvi siması istər-istəməz sosial və iqsadi proseslərə öz təsirini göstərir. Gənclərin problemləri dedikdə, əsasən, gənc ailə, təhsil, asudə vaxt, sağlamlıq, sosial həyata baxış və mənafenin təmin edilməsi başa düşülür. Gənclər bizim gələcəyimizdir. Böyüməkdə olan nəslin inkişafı və sağlamlığına xərc qoymaqla möhkəm dayaqları olan qüdrətli dövlət və ölkənin təməli yaradılır.

Gənc nəslin fiziki və mənəvi cəhətdən inkişafında, onların sağlamlığının təmin edilməsi, intellektual və mədəni səviyyəsinin yüksəldilməsi, əməyə və vətənin müdafiəsinə hazır olan mərd və cəsur insanlar kimi yetişməsində idmanın, bədən tərbiyəsinin rolu əvəzsizdir. Torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında qaldığı bir vaxtda xalqımızın fiziki və mənəvi cəhətdən sağlam, savadlı, vətənpərvər, ölkəsinin milli-mənəvi dəyərlərinə, tarixinə, mədəniyyətinə ehtiram göstərən uşaqlara və gənclərə ehtiyacı böyükdür.

Hər zaman Azərbaycan gənclərinin yanında olan, onları daim dəstəkləyən, diqqət və qayğı göstərən ölkə başçısı İlham Əliyevin 2015-ci il sentyabrın 15-də Sabunçu rayonunda əsaslı şəkildə yenidən qurulan 148 saylı tam orta məktəbin açılışı mərasimində gənclər barəsində dedikləri bunu bir daha təsdiqləyir: "Bizim gənclərimiz bilikli, savadlı olmalıdırlar ki, həyatda özlərinə layiqli yer tutsunlar və eyni zamanda, ölkəmizin ümumi inkişafına da töhfələrini versinlər. Bilikli, savadlı cəmiyyətdə heç bir xoşagəlməz təsirin əhəmiyyəti olmayacaqdır. Çünki biz görürük ki, bu gün dünyada bəzi hallarda ideoloji müharibələr gedir, əsasən də, gənclərlə bağlı xüsusi proqramlar icra edilir. Qloballaşma adı ilə müxtəlif ölkələrdə müəyyən tədbirlər görülür. Nəticə etibarilə bu, ölkələrdə problemlərə gətirib çıxarır. Biz çalışmalıyıq ki, Azərbaycanın dayanıqlı, uğurlu inkişafını əbədi edək. Çünki biz bu gün dünyada inkişafla bağlı öz modelimizi ortaya qoymuşuq. Bu gün dünyada Azərbaycanın inkişaf modeli haqqında danışılır. Bu modelin əsasında bizim müstəqilliyimiz, milli dəyərlərimiz, vətənpərvərliyimiz və müstəqil siyasətimiz dayanır".

Bugünün istedadlı, savadlı, bilikli gəncləri sabahın qurucularıdırlar. Gənc nəsil sağlam və bilikli olmalıdır ki, gələcəyimizi ona etibar edə bilək. Şübhəsiz ki, dövlət qayğısı öz yerində, uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsində ailənin rolu böyükdür. Ailə cəmiyyətin ən mühüm institutlarından biridir. Ailə kiçik dövlətdir. Ailə cəmiyyətin əsas özəyi kimi xalqı yaratdığından, nəticədə hakimiyyətin mənbəyinin ayrılmaz tərkib hissəsinə çevrilir. Bu mənada ailə hər şeyi əvəz edir və onu qurmaq üçün səyi, bir az da ciddilik kifayətdir. Amma onu qorumağa səbr, çox şeyi bağışlamağı, bəzən də çox şeyi unutmağı bacarmaq lazımdır.

## Ailə cəmiyyətin əsas özəyidir

Ailə əvəzi olmayan nadir və az tapılan qiymətli sərvətdir, desək, yanılmarıq. Onu qoruyub saxlamaq hər bir vətəndaşın borcudur. Qarşılıqlı güzəştə getmək ailənin özülünü bərkidir. Təcrübə göstərir ki, əksər hallarda tərəflər arasında əvvəlki sevgi uzun çəkmir. Ona görə də ailənin qorunması üçün başlıca məsələ səbirli olmaqdır. Bütün hallarda səbirsizlik ailəni uğursuzluğa aparır. Ailənin möhkəm, davamlı olması üçün nikahın təntənəli qeyd olunmasına qədər hər iki tərəf bir-birinin xarakterini, xasiyyətini, cəmiyyət üçün önəm daşıyan mənəvi dəyərləri nə dərəcədə qoruya biləcəklərinə əmin olmalıdırlar.

Ailə uşaqlardan başlayır. Ailə yeganə yerdir ki, qarşılıqlı hörmət və ehtiramı yalnız orada ərsəyə gətirib, gələcək nəslin sağlam inkişafına da orada zəmin yaratmaq mümkündür. Böyük mütəfəkkir R.Taqor deyir: "Ailə istənilən sivilizasiyanın və cəmiyyətin əsas özəyidir". Mütəxəssislərin də qeyd etdiyi kimi, ailə həm də insanlığı öyrədən bir akademiyadır. Bəzən nigahın pozulmasına səbəb kimi tərəflərin bilik səviyyəsi, intellekt qabiliyyəti, eləcə də, işsizlik, narkomaniya və spirtli içkilərə aludəçilik kimi səbəblər əsas gətirilir. Bir az keçmişə nəzər yetirəndə görürük ki, ata-babalarımızın heç də hamısı təhsilli deyildi və ailənin təməli necə möhkəm idi. 10-11 uşaq böyüdən valideynlərin həyatı bu günkü gənclərə nümunədir. Onlar çətin şəraitdə, ailə yükünün ağır olmasına baxmayaraq ailəni qoruyub saxlayır, dağılmağa qoymurdular. Bu da onu sübut edir ki, nə yoxsulluq, nə işsizlik, nə də təhsilin səviyyəsi nigahın pozulması üçün səbəb deyil.

Ailənin müqəddəsliyini anlatmaq valideynlərin, cəmiyyətin borcudur. Milli mənəvi dəyərlərə dərindən bağlı olan xalqımız ailəyə böyük önəm verir, qiymətləndirir. Xoşbəxt ailə qarşılıqlı dostluq, hörmət, məhəbbət və qarşılıqlı güzəşt əsasında qurulur. O kökü dərinlikdə olan, kövrək budaqları ilə cəmiyyət üçün şirin bar verən bir ağaca bənzəyir. Ağac dövlətin himayəsində olsa da, ona qulluq etmək valideynlərin konstitutsiya borcudur.

Ailədə uşaqların tərbiyəsi, təhsili ilə bağlı məsələlərdə əsasən, ağırlıq anaların üzərinə düşür. Mütəxəssislər ciddi və sərt anaların övladlarının daha ağıllı və bacarıqlı olduğunu qeyd edirlər. Başqa sözlə desək, belə anaların övladlarının həyatda uğur qazanmaq şansı daha yüksəkdir. Ekspertlərin sözlərinə görə, uşaqlar tərbiyə, təhsil məsələsində ciddi və sərt analardan əvvəldə narazı qalsalar da, sonra onlara minnətdar olurlar. Böyük Britaniyada yerləşən Esseks Universitetinin professoru Erik Rasson bununla bağlı araşdırma aparıb. Onun 2004-cü ildən 2010-ci ilədək olan dövrdə apardığı sorğuda 15 000-dən çox uşaq (13-14 yaş) iştirak edib. Araşdırmanın nəticələrində məlum olub ki, güclü, sərt analar bacarıqlı uşaqlar tərbiyə edir, ya da bacarıqlı insanların anaları çox tələbkardırlar. Erik Rasson bildirib ki, bu tədqiqat ali təhsilə münasibəti öyrənib. Valideynlərin əksəriyyəti uşaqdan bunu tələb edir, xüsusilə də analar. Tədqiqatın nəticələri göstərib ki, uşaqlarına böyük ümidlər bəsləyən anaların övladları daha çox özününəinamlı və əzmkar olur, həyatda özlərinə asan yer tapırlar. Beləri ailədə də, karyera məsələsində də bacarıqlı olurlar.

Tədqiqat aparan psixoloq alim bunun səbəbini belə izah edib: "Bir çox hallarda valideynlərin iradəsi əleyhinə gedərək bizim üçün ən münasib hesab etdiyimiz işlərdə uğur qazanırıq. Amma biz nə qədər çalışsaq da, valideynlərimizin verdiyi istənilən tövsiyələr qəbul etdiyimiz qərarlara təsir edir. Lakin biz hesab edirik ki, hər şeyi özümüz həll edirik".

Uşaqların əksəriyyəti bəzən düşünür ki, zəhmli anaları onların həyatını cəhənnəmə çevirirlər. Amma sonra uşaq böyüyür və buna görə anasına təşəkkür edir. O, anasının onu gücləndirmək üçün etdiyi bütün səylərini anlaya və qiymətləndirə bilərək, çox güman ki, eyni tərbiyə qaydasını növbəti nəslə ötürəcəkdir.

## Olimpiadadan olimpiadaya

Ölkəmizdə idmanın və Olimpiya Hərəkatının inkişafına və kütləviliyinə xüsusi qayğı göstərilir. Məhz buna görədir ki, idmançılarımız Olimpiya oyunlarında müstəqil Azərbaycanın idman şan-şöhrətini ləyaqətlə qoruyub, ölkəmizin şan-şöhrətini artırırlar. Eyni zamanda, Azərbaycan beynəlxalq miqyasda böyük nüfuz qazanıb. Əlbəttə, bunun əsasında təsadüf yox, zərurət dayanır. Bu, Azərbaycanda gedən proseslərin məntiqi nəticəsidir. Qeyd edək ki, müasir dünyada idmançıların Olimpiya Oyunlarındakı nəticələri, Olimpiya Hərəkatındakı fəal iştirakı hər hansı ölkənin beynəlxalq nüfuzuna təsir göstərir, onun tanınmasında əsaslı rol oynayır. Ona görə də, hər bir dövlət öz idmançılarının Olimpiya Oyunlarındakı çıxışlarına böyük əhəmiyyət verir. Azərbaycan idmançıları beynəlxalq turnirlərdə əldə etdikləri uğurlarla ölkəmizin dünyada nüfuzunun artmasında bilavasitə rol oynayırlar. Dünyanın ən mötəbər idman tədbiri olan Olimpiya Oyunlarında qazandığımız mükafatlar, ölkəmizdə idmana göstərilən qayğının bariz nümunəsidir və sevindirici haldır ki, olimpiadadan-olimpiadaya medalların sayı artır.

Bir faktı qeyd edək ki, 2016-cı ildə keçirilən axırıncı yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları 18 medal əldə etdilər. Komandamızın hesabına qızıl medalı taekvondoçu, gənc idmançımız Radik İsayev yazdırdı.

Sərbəst güləşçilər Toğrul Əsgərov, Xetaq Qazyumov, boksçu Lorenzo Sotomayor, cüdoçular Rüstəm Orucov və Elmar Qasımov, qadın güləşçimiz Mariya Stadnik və kanoeçi Aleksandr Demyanenko yalnız final görüşlərində uduzaraq gümüş medala sahib oldular. Taekvondo yarışlarında Milad Beigi Harçeqani və Patimat Abakarova, boksçu Kamran Şahsuvarlı, güləşçilər Rəsul Çunayev, Sabah Şəriəti, Nataliya Sinişin, Hacı Əliyev, Cəbrayıl Həsənov və Şərif Şərifov, avarçəkən İnna Osipenko-Radomskaya isə bürünc medalla kifayətləndilər. Azərbaycanın Olimpiya yığması bu göstərici ilə 207 ölkə arasında 39-cu oldu. Azərbaycan medal sayına görə, 207 iştirakçı və 87 mükafatçı dövlət arasında 15-ci yeri tutdu. Azərbaycan ilk dəfə taekvondo və avarçəkmə yarışlarında medal, boksçuların mübarizəsində isə ilk dəfə finala vəsiqə qazandı.

Ölkəmizdə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər təkcə idmançılar tərəfindən deyil, bütün ölkə vətəndaşları tərəfindən rəğbətlə qarşılanır. Çünki yaradılan şərait ölkəmizin uşaq, yeniyetmə və gənclərinin fiziki sağlamlığının qorunmasında əvəzsiz rol oynayır. İdman sahəsində qazanılan nailiyyətlər həm də dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi siyasi məzmun kəsb edir. Bu baxımdan Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Həm qazandığımız medallar, həm idman komplekslərinin tikintisi, həm də idman ölkəsi kimi imicin möhkəmlənməsi bir vəhdət yaradaraq idman sahəsindəki uğurlarımızın əsasını təşkil edir.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Dekabr

## ayının yekunu Olimpiya dünyası -nın təqdimatında



### Güləş

Moskvada sərbəst və yunan-Roma güləşi üzrə ikiqat Olimpiya çempionu İvan Yarıginin xatirəsinə "Alrosa" kuboku yarışları keçirilib. "Dinamo" İdman Sarayında təşkil olunan turnirdə Olimpiya çəkilərində çıxış edən pəhləvanlar komanda yarışlarında güclərini sınayıblar. Sərbəst güləşçilərin turnirində komandamız Gürcüstana qalib gəlib, Rusiya, İran və Özbəkistana uduzub. Bu nəticə ilə yığmamız 4-cü yeri tutub. Yunan-Roma güləşi üzrə millimiz isə Rusiya və Özbəkistan kollektivinə məğlub olub, Gürcüstan yığmasına isə qalib gəlib. Bu nəticə ilə millimiz "Alrosa" kuboku yarışlarını bürünc medalla başa vurub.

### Boks

Rusiyanın Xantı-Mansiysk şəhərində Sibir neftini kəşf edən həmyerlimiz Fərman Salmanovun xatirəsinə həsr olunmuş Neft Ölkələrinin XVI Dünya Kuboku keçirilib. Yarışda Azərbaycan millisinin boksçuları da qüvvələrini sınayıblar.

Təmsilçilərimizdən Məhəmməd Abdullayev turniri qızıl medalla başa vurub. 91+ kq çəki dərəcəsində mübarizə aparan idmançımız finalda fransalı Camili Aboudo-Moindzeni 5:0 hesabı ilə məğlub edib.

Məsud Yusifzadə (52 kq) və Rauf Rəhimov (81 kq) da fəxri kürsüdə yer alıblar. Boksçularımız yarışı üçüncü pillədə başa vurublar. Onlar yarımfinalda müvafiq olaraq, rusiyalı Bator Saqulayev (1:4) və fransalı Ntambve Qaetana (0:5) uduzublar.

Beləliklə, Neft Ölkələrinin Dünya Kubokunda 1 qızıl və 2 bürünc medal qazanan kişilərdən ibarət yığmamız komanda hesabında üçüncü yeri tutub.

### Cüdo

Çin Xalq Respublikasının Quancjou şəhərində cüdo üzrə "World Masters" turniri keçirilib. Beynəlxalq turnirdə dünyanın 53 ölkəsindən 231 idmançı mübarizə aparıb. İldə bir dəfə keçirilən "Dünya Masterləri" yarışında reytinq cədvəlində ilk 16 yeri tutan cüdoçular öz çəkisində ən güclünü müəyyənləşdiriblər.

Yarış Azərbaycan millisi üçün uğurlu olub. Belə ki, 73 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Rüstəm Orucov bütün rəqiblərinə qalib gələrək nüfuzlu yarışın qalibi adına layiq görülüb. Cüdoçumuz İran, Gürcüstan, Koreya və Kanada idmançılarını məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

### Karate

Çinin Şanxay şəhərində Karate1 A seriyası turniri keçirilib. Yarışda ölkəmizi İrina Zaretska (-68 kq) təmsil edib. İdmançımız turnirdə mükafatsız qalmasına baxmayaraq həm dünya, həm də Olimpiya reytinqində mövqeyini əlavə xallarla möhkəmlədib.

* * *

Yeniyetmə və gənclərdən ibarət milli komandamız İtaliyanın Venesiya şəhərində mövsümün son Liqa turnirində qüvvəsini sınayıb. Gənclər liqası turnirinin yekun yarışında 67 ölkədən 2652 karateçi mübarizə aparıb. Komandamız yarışı 3 medalla başa vurub. 14-15 yaşlı yeniyetmələr arasında Hüseyn Məmmədli (-57 kq) və Tale Yaqubov (-63 kq) qızıl medala layiq görülüb. 16-17 yaşlı gənclərin yarışında isə Əminağa Quliyev (-61 kq) gümüş mükafata sahib olub. 16-17 yaşlı gənclər komandasının liderlərindən olan Polina Qurenko (-53 kq) yarışqabağı məşqlərdə zədə aldığından döyüşlərdə iştirak edə bilməyib.

### Gimnastika

Gimnastikanın tanınmış simaları Belçikanın Antverpen şəhərində toplaşıblar. 20-ci "GymGala" şousunun keçirildiyi "Lotto Arena"da gimnastikanın müxtəlif növləri üzrə dünya, Avropa mükafatçıları, həmçinin Olimpiya ulduzları öz çıxışlarını təqdim ediblər. Dəvətlilər arasında Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası da yer alıb. Siyana Vasileva, Diana Əhmədbəyli, Zeynəb Hümmətova, Ayna Cəfərova və Aliyə Paşayevanın gözoxşayan performansları izləyicilər tərəfindən maraqla qarşılanıb.

Azərbaycan gimnastikasının daha bir nümayəndəsinin sorağı isə Braziliyadan gəlib. Belə ki, bədii gimnastika üzrə milli komandamızın xoreoqrafı Kamil Quliyev qarşı tərəfin dəvəti ilə bir neçə gün ərzində Braziliyanın 150-yə yaxın gimnastı isə öz təcrübəsini bölüşərək, onlara balet və rəqslə bağlı ustad dərsləri keçib.

### Taekvondo

İspaniyada taekvondo üzrə yeniyetmələr arasında Avropa birinciliyi keçirilib. Komandamız qitə birinciliyində 11 taekvondoçu ilə təmsil olunub. Yarışda 37 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Rahid Vəliyev gümüş medala sahib çıxıb.

* * *

Çin Xalq Respublikasında "Böyük Dəbilqə" seriyaları başa çatıb. Olimpiya çəki dərəcələrində keçirilən turnirdə millimizin iki üzvü mübarizə aparıb. +80 kq çəki dərəcəsində iştirak edən Radik İsayev ilk döyüşündə məğlub olaraq mükafatçılar sırasına düşə bilməyib. Onun komanda yoldaşı Milad Beiqi Herçəqani (-80 kq) isə yarımfinala kimi irəliləyib. O, rəqibləri - britaniyalı Deymon Sansuma, çinli Jiannan Huanqa qalib gəlsə də, Koreya təmsilçisi Hvan Nam Qonqa məğlub olub.

Bürünc medal uğrunda isə Çin taekvondoçusu Linqlonq Çenə şans verməyən idmançımız yarışı üçüncü pillədə başa vurub.

### Ağırlıqqaldırma

Qətərin paytaxtı Dohada ağırlıqqaldırma üzrə 5-ci Beynəlxalq Qətər kuboku turniri keçirilib. Yarışda istirak edən idmançımız Səbinə Əzimova bürünc medala sahib çıxıb.

S.Əzimova 55 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdənqaldırma hərəkətində 74 kq, təkanla qaldırma hərəkətində isə 92 kq çəkini ram edib. Təmsilçimiz ümumi nəticədə 166 kiloqram (74+92) nəticə ilə bürünc medala sahib çıxıb.

* * *

Gürcüstanın Kutaisi şəhərində ağırlıqqaldırma üzrə üçqat Olimpiya çempionu Kaxi Kaxiaşvilinin şərəfinə beynəlxalq turnir keçirilib.

Yarışda yerli idmançılarla yanaşı, azərbaycanlı atletlər də iştirak ediblər. Paşa İbrahimli 73 kiloqram, Kamran İsmayılov isə 96 kiloqram çəki dərəcələrində mübarizə aparıblar. Məşqçi Taleh Hüseynovun rəhbərliyi altında çıxış edən atletlər iki qızıl medal qazanıblar.

Paşa İbrahimli ümumilikdə 286 kiloqram (130+156) nəticə ilə öz çəki dərəcəsində bütün rəqiblərini qabaqlayıb. Kamran İsmayılov isə 322 kiloqram (141+181) nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

### Velosiped idmanı

Portuqaliyada trek üzrə ənənəvi "Prova International Municipo de Anadia" turniri keçirilib. Beynəlxalq Velosipedçilər İttifaqının 1-ci kateqoriyalı yarışı Azərbaycanın elit yığma komandasının üzvü Sergey Omelçenko üçün uğurlu nəticə ilə yadda qalıb.

Keyrin növündə mübarizə aparan təmsilçimiz təsnifat yürüşünü inamla keçərək final mərhələsinə vəsiqə qazanıb. Həlledici yürüşdə İspaniya və Kanadanın 2, İtaliyanın isə 1 idmançısı ilə mübarizə aparan velosipedçimiz finiş xəttini 3-cü keçib və Anadia turnirinin bürünc medalına layiq görülüb.

Nüfuzlu yarışda əldə etdiyi bürünc medal Sergey Omelçenkoya həm də 160 reytinq xalı qazandırıb.

### Futbol

"Qarabağ" futbol klubunun UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümündə iştirakı başa çatıb. Komandamız qrup mərhələsinin sonuncu - altıncı turunda səfərdə "Arsenal" komandasına minimal hesabla uduzub - 0:1. Oyunda yeganə qolu matçın 16-cı dəqiqəsində londonluların heyətində Aleksandr Lakazet vurub.

### Voleybol

Bakının qadın voleybolçulardan ibarət "Azərreyl" klubu "Challenge Cup"da cavab oyununu keçirib. Bakı təmsilçisi 1/16 final mərhələsində növbəti dəfə Belçikada yerli "Hermes Ostende" klubu ilə qarşılaşıb. "Mister V-Arena"da keçirilən görüş Belçika təmsilçisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Komandalar arasında Belçikada təşkil olunan ilk oyunda da "Azərreyl" eyni hesabla məğlub olub. Beləliklə, iki oyunun nəticəsində görə, Bakı təmsilçisi "Challange Cup"da mübarizəni dayandırıb.

### Şahmat

Bakıda "Baku Open" beynəlxalq şahmat turniri keçirilib. İsveçrə sistemi üzrə keçirilən turnirdə Azərbaycanla yanaşı, Belarus, ABŞ, Ukrayna, Braziliya, Rusiya, Gürcüstan, Fransa, İordaniya və Əfqanıstandan 156 şahmatçı mübarizə aparıb. 9 mümkün xaldan 7,5 xal toplayan şahmatçımız Eltac Səfərli turnirin qalibi olub. Qədir Hüseynov, Rəvan Əliyev, Samir Davidov (Azərbaycan), Jamsaran Sıdıpov (Rusiya), Timur Qareyev (ABŞ) və İvan Popov (Rusiya) 7 xalla sonrakı yerləri bölüşüblər.

* * *

Avstraliyanın Eşvud şəhərində "Australian Open-2018" şahmat turniri keçirilib. 167 şahmatçının mübarizə apardığı turnirdə 9 turdan 7,5 xal toplayan Azərbaycan şahmatçısı Kənan İzzət gümüş medal qazanıb. Onunla eyni xalı bölüşən Avstraliya təmsilçisi Temur Kuybokarov isə turnirin qalibi olub.



3-cü yeri 7 xalla Avstraliyanın digər təmsilçisi Justin Tan tutub.

### Sumo

Polşada sumo üzrə "Poland Sumo Cup" beynəlxalq turniri keçirilib. 10 ölkədən 300-dək idmançının iştirak etdiyi yarışda Azərbaycan sumoçuları da qüvvələrini sınayıblar. Nəhənglərin yarışında komandamız 3 idmançı və 1 hakim ilə təmsil olunub.

Şəxsi yarışlarda təmsilçimiz Elmeddin Ramazanov bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. Digər idmançımız Çingiz Səmədov isə yalnız komanda yoldaşına uduzaraq üçüncü yeri tutub. Komanda yarışları da təmsilçilərimiz üçün uğurlu olub. Belə ki, sumoçularımız komanda yarışlarında bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

### Atıcılıq

Güllə atıcılığı üzrə komandamız açıq Tbilisi kuboku yarışlarında uğurla çıxış ediblər. İdmançımız Ruslan Lunyov 10 metr məsafəyə atəşaçma yarışında (PTÇ-3) 575 xal toplayaraq turnirin qalibi adını qazanıb. Vladislav Kalmıkov isə 552 xalla yeniyetmələr arasında üçüncü olub.

### Badminton

Zambiyanın paytaxtı Lusakada badminton üzrə "Zambia İnternational 2018" turniri keçirilib. Ölkəmizi bu yarışda Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni təmsil edib. Təmsilçilərimizdən E.Dviçayo bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Kişilərin qoşa yarışında da turnirin qalibi adını badmintonçularımız qazanıblar. Mübarizəyə səkkizdəbir finaldan başlayan Edi - Ezmi cütlüyü finala qədər uğurla irəliləyib. Həlledici oyunda nigeriyalı Qodvin Olofua - Anuoluvapo Juvon Opeyori cütlüyü üzərində 2:1 hesablı qələbə qazanan badmintonçularımız kişilərin qoşa yarışında birinci olublar.

* * *

Cənubi Afrika Respublikasının Keyptaun şəhərində "South Africa İnternational 2018" turniri keçirilib. Ölkəmizi bu yarışda Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni təmsil ediblər. Turnirin finalında iki Azərbaycan təmsilçisi qarşılaşıb. Həlledici görüşdə Ezmi Qovimuramadhoni Edi Reski Dviçayonu məğlub edərək kişilərin şəxsi yarışında "South Africa International 2018" turnirinin qalibi adını qazanıb. E.Dviçayo isə gümüş medala layiq görülüb.

Edi-Ezmi tandemi kişi badmintonçuların qoşa yarışda da yüksək nəticə göstərib. Kişilərin qoşa yarışında finalda CAR badmintonçuları Jarred Elliot - Şon Nun cütlüyünə qalib gələn Edi-Ezmi bu kateqoriya üzrə yarışın qalibi adını qazanıblar.

* * *

Badmintonçularımız Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni Ankarada keçirilən "Turkey International 2018" turnirində çıxışlarını başa vurublar.

Təmsilçilərimizdən Edi Reski Dviçayo 1/16 finalda yunanıstanlı İlias Xanzounu məğlub edib. Edi növbəti mərhələdə Danimarka idmançısı Soren Hald üzərində qələbə qazanıb. Badmintonçumuz 1/4 finalda Türkiyə təmsilçisi Məhəmməd Əli Kurta qalib gəlib. Yarımfinala yüksəlməklə bürünc medalı təmin edən Edi bu mərhələdə indoneziyalı İkhsan Leonardo İmanuel Rumbaya uduzub.

Mübarizəyə 1/16 finaldan başlayan Ezmi Qovimuramadhoni ilk mərhələdə özbəkistanlı Artyom Savatyugini məğlub edib. Ezmi 1/8 finalda İndoneziya badmintonçusu Kristian Adinataya uduzub və mübarizəni dayandırıb.

### Sambo

Serbiyanın Novi Sad şəhərində sambo üzrə tələbələr arasında dünya çempionatı keçirilib. Azərbaycan yarışda 1 idmançı ilə təmsil olunub. Samboçumuz Abdulla Abdullayev 74 kq çəki dərəcəsində bürünc medala layiq görülüb.

* * *

Sambo üzrə Serbiyanın Novi Sad şəhərində kadetlər arasında dünya birinciliyi keçirilib. Birincilikdə Azərbaycan üç samboçu ilə təmsil olunub. Azərbaycan idmançısı yarışda üçüncü yer tutub. Çempionatda 78 kq çəki dərəcəsində mübarizə aparan Adil Adilzadə bürünc medala layiq görülüb.

### Qılıncoynatma

Yunanıstanın İraklion şəhərində gənclər arasında qılıncoynatma üzrə dünya kuboku yarışları keçirilib. Azərbaycan yarışda üç şpaqaçı ilə təmsil olunub. Təmsilçilərimizdən Ruslan Həsənov şəxsi yarışda qrup mərhələsində keçirdiyi 6 görüşdən 4-də qələbə qazanıb. Təmsilçilərimiz şəxsi yarışlarda mükafatçılar sırasına düşə bilməyiblər. Şpaqaçılarımız turnirin sonuncu günündə komanda yarışında qüvvələrini sınayıblar. R.Həsənov, F.Səfərov və X.Əliyevdən ibarət komandamız 1/16 finalda braziliyalı həmkarlarına 21:45 hesabı ilə uduzub.

Yelkən idmanı

# Yığma komandamız təlim-məşq düşərgəsində iştirak edib

Azərbaycan Yelkənli İdman Federasiyasının yığma komandası İzmirdə "Optimist" və "Laser" sinifləri üzrə təlim-məşq düşərgəsində iştirak edib. "Teos Marina" yelkənli idman klubunun dəvəti ilə Türkiyənin nüfuzlu klubları da düşərgədə iştirak ediblər. Düşərgənin sonunda bütün idmançıların iştirakı ilə "Teos Kuboku" uğrunda yarış keçirilib.

Təlim-məşq düşərgəsində yığmamızın yelkənçiləri ilə yanaşı, Azərbaycan Yelkənli İdman Federasiyasının yeni idmançıları da bacarıqlarını nümayiş etdiriblər.

Federasiyanın yığma komandasının üzvləri Seferihisar bələdiyyəsində olub, sədr Tunç Soyer ilə görüşüblər. Azərbaycanlı idmançıları yüksək qonaqpərvərliklə qarşılayan bələdiyyə sədri yelkənçilərimizin çətin hava şəraitində peşəkarlıq nümayiş etdirdiklərini vurğulayaraq, onların çıxışını yüksək qiymətləndirib.



Düşərgəyə "Optimist" sinfi üzrə Murad Hacızadə, Murad İsmayılov, Kristina Kərimova, Ayla Babayeva, Fidan Ağazadə, Səxavət Əzimov, Nicat Şükürov, Timur Sıkaçevski, "Laser" sinfi üzrə İsmayıl Kərimov, Cavid Kərimov, Murad Allahverdi, heyətin rəhbəri Burcu Alqon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçə Subaşı, köməkçi məşqçilər Aleksandr Knyazev, Anton Vilyayev qatılıblar.

Qeyd edək ki, aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi maddi-texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, komandaya yeni idmançılar cəlb etməkdir. Federasiya tərəfindən "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşdırılıb. Bu komandaları xaricdən dəvət edilən iki baş məşqçi çalışdırır. Komandaların məşqləri məhz xaricdən dəvət edilən idman menecerləri, yüksək göstəricilərə malik mütəxəssislərin rəhbərliyi ilə keçirilir.

Beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edən yelkənçilərimiz dəfələrlə xaricdə təşkil olunan təlim-məşq düşərgələrində iştirak ediblər. Təlim-məşq düşərgələrində iştirakın əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitlərində yarış təcrübələrinin daha da gücləndirilməsidir.

Şahmat

# Veyk-an-Zeedə iki qrossmeysterimiz yarışacaq

Yanvarın 11-də Hollandiyada dünyanın ən mötəbər turnirlərindən biri hesab olan Veyk-an Zee şahmat festivalı ("Tata Stell Chess-2019) start götürəcək. 81-ci dəfə keçiriləcək turnirdə iştirakçıların yekun siyahısı məlum olub. Bu nüfuzlu yarışda ölkəmizi Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov təmsil edəcəklər. Dünya çempionu norveçli Maqnus Karlsen və iki keçmiş dünya çempionu Vişvanatan Anand və Vladimir Kramnik, ev sahibi olan Aniş Qiri və 2018-ci ilin ən yaxşı performans göstərən şahmatçısı, çinli Dinq Lijenin də iştirak edəcəyi yarış dairəvi sistemlə 14 turdan ibarət olacaq. 12 tur Veyk-an-Zee şəhərində, 5-ci turun oyunları Alkmar şəhərində, 10-cu turun oyunları isə Leydendə keçirilməsi planlaşdırılır.

Əsas ("Masters") turnirlə bərabər festival çərçivəsində "Challengers" yarışları da keçiriləcək. Qeyd edək ki, qrossmeysterimiz Teymur Rəcəbov 2007-ci ildə Veyk-an-Zee turnirinin qaliblərindən biri olub.

* * *

Azərbaycanın tanınmış şahmat məşqçisi, Respublika Şahmat Mərkəzinin ilk direktoru, şahmat turnirlərinin peşəkar təşkilatçısı Fuad Cəfərovun xatirəsinə həsr olunan Fuad Cəfərov Memorialı çərçivəsində beynəlxalq "Masters" turnirində növbəti turun oyunları keçirilib. 10 şahmatçının, o cümlədən



4 qrossmeysterin iştirak etdiyi A qrupunda - "Masters" turnirində İran təmsilçisi Araş Təhbaz (2468) maksimum xalla liderdir. İkinci yerə 2,5 xalla Azərbaycan şahmatçısı Ülvi Bacarani (2421) sahib olub. Üçüncü və dördüncü pillələrdə qərarlaşan ukraynalı Mixail Simantsev (2401) və təmsilçimiz Abdulla Qədimbəyli (2409) də hərəyə 2,5 xal toplayıblar.

80 şahmatçının iştirak etdiyi "Open" turnirində isə iki turdan sonra iranlı Arya Omidi maksimum xalla birinci pillədədir. Onunla yanaşı, 15 şahmatçı da hərəyə 2 xal qazanıb.

37 şahmatçının mübarizə apardığı C qrupunda (11 yaşınadək) 4 oyundan 3,5 xal toplayan Nihad Kərimov (1404) ilk pilləyə sahib olub.

Festival çərçivəsində rapid üzrə yarışlarda 7 turun oyunları keçirilib. Turnir cədvəlinə 7 xalla azərbaycanlı şahmatçı Read Səmədov (2019) başçılıq edir. Sonrakı pillələrə təmsilçilərimiz Loğman Quliyev (2252, 6 xal), Əhməd Əhmədzadə (2101, 5,5 xal) sahib olublar.

Fuad Cəfərov Memorialına yanvarın 11-də yekun vurulacaq.

* * *

İtaliyanın Villorba şəhərində keçirilən şahmat üzrə üçüncü "Vergani Cup" festivalı başa çatıb.

Yarışda iştirak edən Azərbaycan şahmatçısı Ülviyyə Fətəliyeva (2301) sonuncu turda italiyalı Artem Gileviç (2404) üzərində qələbə qazanaraq xalların sayını 5-ə çatdırıb.

Beləliklə, 9 turun yekununa görə şahmatçımız turnir cədvəlində 18-ci yerdə qərarlaşıb.

* * *

Sankt-Peterburqda keçirilən blits üzrə dünya çempionatına yekun vurulub. Mundialda dünya çempionu adına şahmat tacının hazırkı sahibi, norveçli Maqnus Karlsen sahib olub. Norveçli şahmatçı 21 turdan 17 xal toplayaraq bütün rəqiblərini geridə qoyub.

Polşa təmsilçisi Jan Kriştof Duda 16,5 xalla gümüş, amerikalı Hikaru Nakamura 14,5 xalla bürünc medallara layiq görülüblər.

Şahmatçımız Şəhriyar Məmmədyarov isə bu turnirdə 13-cü yerlə kifayətlənməli olub. Qrossmeysterimiz 13,5 xal toplayıb. Rauf Məmmədov 12,5 xalla 32-ci, Qədir Hüseynov isə 12 xalla 49-cu pillələrdə qərarlaşıblar.

Qadınların yarışında isə 17 turdan sonra ən yüksək nəticəni 13,5 xalla Rusiya təmsilçisi Katerina Laqno göstərib. İranlı Xademalşareh Sarasadat 13 xalla ikinci, çinli Tinqce Ley 12 xalla üçüncü pillələrdə yer alıblar.

Azərbaycanın qadın şahmatçıları arasında ən yüksək nəticəni Zeynəb Məmmədyarova göstərib. O, 11 xalla 10-cu yeri tutub. Gülnar Məmmədova 10,5 xalla 23-cü, Türkan Məmmədyarova və Günay Məmmədzadə hərəyə 10 xalla 23-cü və 25-ci yerlərdə qərarlaşıblar.

Ağırlıqqaldırma

# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş turnir

*Milli Qəhrəman Fəxrəddin Şahbazovun xatirəsinə həsr olunan ağırlıqqaldırma üzrə XVIII açıq turnir keçirilib. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Ağır Atletika Federasiyasının təşkilatçılığı ilə keçirilən yarış beynəlxalq status daşıyıb.*



Yarışda Azərbaycanın paytaxt və regionlarında fəaliyyət göstərən idman təşkilatlarından, həmçinin Gürcüstandan dəvət olunan idmançılar iştirak ediblər.

Turnirin açılış mərasimində Fəxrəddin Şahbazovun ailə üzvləri, həmçinin Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Azərbaycan Ağır Atletika Federasiyasının birinci vitse-prezidenti Tofiq Heydərov və digər qonaqlar iştirak ediblər.

Tədbirdə çıxış edən Raqif Abbasov Milli Qəhrəmanın ruhunun bu qədər uca tutulması və onun xatirəsinə həsr edilən belə mötəbər turnirin ənənəvi olaraq keçirilməsini yüksək qiymətləndirib.

Milli Qəhrəmanın həyat yoldaşı Nəsibə xanım və nəvəsi Fəxrəddin çıxış edərək ailələri adından yarış təşkilatçılarına təşəkkürlərini bildiriblər.

Daha sonra birinci vitse-prezident Tofiq Heydərov yarışın ilk qızıl medalını nəvə Fəxrəddinə təqdim edib.

T.Heydərov çıxışında 2018-ci ildə Azərbaycan ağırlıqqaldıranlarının qazandığı böyük uğurlardan danışıb, bu idman növünün inkişafı istiqamətində görülən işlərdən bəhs edib.

Yarışda müxtəlif çəki dərəcələrində Əvəz Tağıyev, Elvin Şükürzadə, Elşən Məmmədov, Qurami Giorbelidze, Arçil Malakmadze, Lamia Tebidze, İsa Həsənli, Əli Şükürlü, Ümidvar Bayramlı və Tornike Tabatadze qalib adını qazanıblar.

Mükafatçılara medal, diplom və xatirə hədiyyələri təqdim edilib.

Bölgə xəbərləri

# Alpaqutçular üçün zona seminarı

Ağdam Olimpiya İdman Kompleksində Azərbaycan Alpaqut Federasiyası Qarabağ regional nümayəndəliyinin təşkilatçılığı ilə idmançılar üçün zona seminarı keçirilib.

Ağdam, Ağcabədi və Laçın filiallarının alpaqutçularının iştirak etdikləri seminarı federasiyanın regional inkişaf üzrə vitse-prezidenti Rafiq Qasımov aparıb. Seminardan sonra dərəcələr üzrə imtahan keçirilib. İmtahanın nəticəsinə görə 18 nəfər uşaq və yeniyetmə müxtəlif dərəcəli kəmərə layiq görülüb.

* * *

Uşaq-Gənclər Futbol Federasiyasının təşkilatçılığı ilə Saatlı Olimpiya İdman Kompleksində 12-13 yaşlı uşaqlardan ibarət komandalar arasında turnir təşkil olunub. Futbol yarışında Sabirabad, Saatlı, Şirvan, Hacıqabul və İmişlini təmsil edən 6 komanda iştirak edib. Yarışın qalibi "Saatlı-1" komandası olub. "Şirvan" və "Sabirabad" təmsilçiləri, müvafiq olaraq ikinci və üçüncü yerləri tutublar.

* * *

AFFA-nın və Sabirabad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Sabirabad Olimpiya İdman Kompleksində "Açıq Əyləncəli Futbol Məktəbi" layihəsi çərçivəsində növbəti idman tədbiri keçirilib. Tədbirdə AFFA-nın birinci vitse-prezidenti, Uşaq-Gənclər Futbol Federasiyasının prezidenti, Açıq Əyləncəli Futbol Məktəblərinin Azərbaycan üzrə rəhbəri, Milli Məclisin deputatı Rauf Əliyev, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov, millət vəkilləri Elçin Quliyev, İlham Əliyev, Gənclər və İdman İdarəsinin rəisi Nadir Quliyev və layihənin kordinatoru Kərim Ağayev iştirak ediblər. Tədbirdə çıxış edənlər ölkəmizdə idmana və gənclərə göstərilən dövlət qayğısından danışıb, Azərbaycan idmançılarının dünya və ölkə çempionatlarında qazandıqları uğurlardan bəhs ediblər.

Formula-1

# Martin Brandlın "Jordan"ı satışa çıxarılacaq



1996-cı il mövsümü Martin Brandl üçün Formula-1-də sonuncu oldu. Həmin vaxtlar o, "Peugeot" mühərrikli "Jordan 196" bolidində Eddi Jordanın komandasının idman şərəfini qoruyurdu.

Qızılı rəngə boyanmış və kifayət qədər sürətli olan bolid parlaq xarici görünüşü ilə fərqlənirdi. "Peugeot V10" həmin mövsüm üçün o qədər də güclü mühərrik hesab edilməsə də, "Jordan"ın yürüşçüləri Martin Brandl və Rubens Barrikelloya müntəzəm olaraq xallar uğrunda mübarizə aparmağa şərait yaradırdı.

"Sotheby s" hərrac evi britaniyalının 1996-cı ildə yürüşlərdə iştirak etdiyi avtomobili fevral ayında Parisdə keçiriləcək hərraca çıxarmağı planlaşdırır.

"Jordan 196" onunla yadda qalıb ki, Martin Brendl Avstraliya Qran-Prisinin startında bu bolidə uzun müddət xatırlanacaq qəzaya uğrayıb. İndi lazımi vəsaitə malik istənilən şəxsin ala biləcəyi 03 nömrəli şassi isə o zaman ehtiyatda idi: məhz pilot bu bolidə əyləşərək Melburnda start xəttinə təkrar çıxıb.

Martin Brandl, həmçinin bu "Jordan"ın sükanı arxasında Monrealda, Nyurburqrinqdə və Silverstounda finişə 6-cı çatıb. Hərracın təşkilatçıları hazırda "Sky Sports" telekanalının populyar şərhçisi olan Martin Brandlın F1 karyerasını başa vurmazdan əvvəl çıxış etdiyi bolidin ən azı 170-190 min avroya satılacağına ümid edirlər.

* * *

Formula 1 üzrə "Mersedes" komandası alman pilot Mik Şumaxerə gənc yürüşçülərin inkişafı proqramında iştirak etməyi təklif etməyib.

Yayılan şayiələrə görə, "Mersedes" və "Ferrari" komandaları Miki öz sıralarına cəlb etmək üçün rəqabət aparırlar. "Kral yürüşləri"nin yeddiqat çempionu Mixael Şumaxerin oğlu ötən il Avropada Formula-3 yarışlarının qalibi olub, bu ildən isə Formula-2-də çıxış edəcək.

"Mersedes" komandasının avtoyürüş proqramının rəhbəri Toto Volf deyib: "Mik Formula-3 yarışlarını "Mersedes" motoru ilə udub, lakin indi biz ona özünü inkişaf etdirmək imkanı verməliyik. Hazırda bizim gənclər proqramında



yerlərin sayı məhduddur. Mənim üçün prioritet olan 2020-ci ildə Esteban Okon üçün yer tapmaqdır".

* * *

Finlandiyanın Yuvyaskyulya şəhərində keçirilən Milli Avtomobil Federasiyasının ənənəvi mükafatlandırma mərasimində Kim Raykkonenin növbəti dəfə "İlin pilotu" seçildiyi elan olunub.

Mərasimdə iştirak etməyən fin yürüşçünün göndərdiyi videomüraciətdə deyilir: "Hər şeydən əvvəl, mükafat alanların hamısını təbrik edirəm. Mərasimdə Finlandiya Milli Avtomobil Federasiyasının yaxşı mütəxəssisləri iştirak edirlər və şübhə etmirəm ki, onlar mərasimi yüksək səviyyədə keçirəcəklər. Hamınıza xoş axşam və uğurlu yeni idman mövsümü arzulayıram".

Kimi Raykkonen uzunmüddətli karyerası ərzində öz vətənində beşinci dəfə "İlin pilotu" seçilib.

# FUTBOL

## Uşaqlar arasında futbol turniri keçirilib

Dekabrın 28-30-da "Amasiya" İdman Kompleksində Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş futbol turniri keçirilib. Turnir 2009-2010-cu illər təvəllüdlü idmançılar arasında təşkil olunub. Olimpiya sistemi üzrə keçirilən yarışda iki yaş qrupu üzrə 16 komanda mübarizə aparıb. 2009-cu illər təvəllüdlü idmançıların çıxış etdiyi yarışda "Neftçi" PFK, "Zirə", ROFM, "Units Starts", "Neftçi" İK, "Amasiya", "Sərhədçi" və "Vətən" komandaları yer alıb. Bu yaş qrupu üzrə keçirilən yarışların finalında "Neftçi" PFK və "Amasiya" komandaları qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən yarışda "Neftçi" PFK rəqibini 8:4 hesabı ilə məğlub edərək, turnirin qalibi adını qazanıb. Turnirin ən yaxşı qapıçısı Ömər Məhəmməd (ROFM), ən yaxşı müdafiəçisi Camil Səlimov ("Neftçi" PFK), ən yaxşı yarımmüdafiəçisi isə Zeyid Nəsrullah ("Vətən") seçilib. Rüstəm Hüseynli ("Neftçi" PFK) isə turnirin ən məhsuldar futbolçusu olub - 13 qol.

2010-cu il təvəllüdlü futbolçuların yarışında isə ROFM-1, "Sərhədçi", "Units Stars", "Zirə", "Qarabağ", ROFM-2, "Neftçi" PFK və "Vətən" komandaları qalib adı uğrunda yarışıb. Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışın finalında "Qarabağ" və "Sərhədçi" komandaları qarşılaşıb. Görüşdə rəqibinə 4:0 hesabı ilə qalib gələn "Qarabağ" futbolçuları birinci yerə layiq görülüb. Bu yaş qrupu üzrə yarışlardan sonra turnirin ən yaxşılarının mükafatlandırma mərasimi keçirilib.



Turnirin ən yaxşı qapıçısı Rail Hacızadə ("Units Stars"), ən yaxşı müdafiəçisi Maksim Qrizin ("Sərhədçi"), ən yaxşı yarımmüdafiəçisi isə Nazim Əliyev ("Vətən") seçilib. Ən məhsuldar oyunçu nominasiyasına isə rəqib qapılarından 7 top keçirən Uğur Qurbanlı ("Qarabağ") layiq görülüb.



Turnirin bağlanış mərasimində Gənclər və İdman Nazirliyinin futbol sektorunun əməkdaşı Əliniyaz Mirzəyev, Əməkdar məşqçilər Böyükağa Ağayev və Bəhmən Həsənov çıxış edərək yarışın əhəmiyyəti barəsində danışıblar. Natiqlər bu cür turnirlərin keçirilməsinin uşaq futbolunun inkişafında, eləcə də uşaq və yeniyetmələrin asudə vaxtlarının səmərəli keçirilməsində böyük rolu olduğunu qeyd ediblər. Sonda turnirin qalib və mükafatçıları kubok, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.



### "Komandaların heyətində ən yaxşı futbolçuları seçmək çox çətin oldu"

Futbol üzrə respublika ixtisaslaşdırılmış uşaq-gənclər olimpiya ehtiyatı məktəbinin (FÜİUGOEM) direktoru, veteran futbolçu Kazbek Tuayev yarış başa çatdıqdan sonra turnirlə bağlı fikirlərini "Olimpiya dünyası" qəzeti ilə bölüşdü.

"Uzun müddət idi ki, bu cür yarışın keçirilməsi üçün hazırlıq işləri görürdük. Peşəkar insanların birgə dəstəyi sayəsində futbol yarışının keçirilməsinə nail olduq. Yarış yüksək səviyyədə təşkil olunmuşdu. Hava şəraitinin soyuq olmasına baxmayaraq, yarışı böyük insan kütləsi seyr edirdi. Kiçikyaşlı uşaqlar valideynləri qarşısında daha inamlı çıxış etdilər. İştirak edən komandaların heyətində ən yaxşı futbolçuları seçmək çox çətin oldu. Onların hər biri meydanda öz bacarığını nümayiş etdirdilər. Hiss olunur ki, uşaqların hər biri bu idman növünə böyük maraq göstərirlər. Biz də öz tərəfimizdən buna böyük qiymət verməyə çalışdıq. İstərdik ki, bu turnir ənənə halını alsın və hər il təşkil olunsun. Bununla da yeni futbolçuların yetişməsində öz töhfəmizi verək. Qeyd edim ki, yarışda iştirak edən komandaların hər biri ödənişsiz olaraq çıxış etdilər. Biz isə öz növbəmizdə yarışda fərqlənən komandalara, onların futbolçularına kubok, diplom və qiymətli hədiyyələr təqdim etdik. Fürsətdən istifadə edib, Gənclər və idman nazirliyinə, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinə, "Amasiya" idman kompleksinin rəhbərliyinə, eləcədə turnirin təşkilində bizə yaxından köməklik göstərən insanlara minnətdarlığımızı bildiririm. Hesab edirəm ki, bu kimi turnirlər Azərbaycan futbolunun yüksəlişində əsas rol oynayacaq".



*Anar Əhmədov*




Madrid "Real"ı qapıçı Keylor Navasla müqaviləni yeniləyib. Kosta-rikalı qapıçı 2021-ci ilin iyun ayına qədər klubun üzvü olacaq. O, ildə 5 milyon avro qazanacaq.

* * *

"Ştutqart"ın futbolçusu Benjamin Pavar "Barselona"nın hədəfinə düşüb. Fransa millisinin üzvü bu ilin yayına qədər İspaniya klubunun heyətinə cəlb olunacaq. Artıq Kataloniya klubunun nümayəndələri futbolçunun agenti ilə ilkin danışıq aparıblar.

* * *

"Atletiko"nun futbolçusu Felipe Luis yayda Madrid klubunu tərk edə bilər. Belə ki, 33 yaşlı müdafiəçi mövsümün sonu başa çatacaq müqavilənin müddətini daha 1 il uzatmaqla bağlı klubunun təklifini rədd edib. Qeyd edək ki, klubdakı transfer qaydalarına əsasən yaşı 30-dan yuxarı olan futbolçuların müqaviləsinin müddəti ancaq 1 il artırıla bilər.



* * *

Fransa millisinin sabiq üzvü Samir Nəsri "Vest Hem"lə razılığa gəlib. 31 yaşlı yarımmüdafiəçi ilə sonradan uzadıla bilməsi şərti ilə bu mövsümün sonunadək müqavilə imzalanıb.

Qeyd edək ki, S.Nəsrinin qanında dopinq aşkarlandığı üçün 18 ay müddətinə cəzalandırılmışdı. Onun cəza müddəti artıq başa çatıb.

* * *

"Tottenhem" belçikalı futbolçusu Tobi Alderveyreldlə müqaviləni yeniləyib.

Bu ilin yayında başa çatacaq müqaviləyə baxmayaraq, Belçika millisinin üzvü daha bir il London klubunun şərəfini qoruyacaq.

* * *

"Çelsi"nin hücumçusu Alvaro Morata "Sevilya"ya keçməyə razılıq verib. İngiltərədə işləri yolunda getməyən və ehtiyatda qalan forvard yenidən vətənində oynamaq niyyətindədir. Yaxın günlərdə Moratanın menecerinin "Çelsi" rəhbərliyi ilə görüşüb, mümkün transferi müzakirə edəcəyi gözlənilir.



* * *

"Tottenhem"in yarımmüdafiəçisi Kristian Eriksen karyerasını "Real"da davam etdirə bilər. 26 yaşlı danimarkalının London klubu ilə müqavilə müddətini uzatmaqdan imtina etməsi onun İspaniyaya köçmək ehtimalını gücləndirib. Ancaq ingilislərin yarımmüdafiəçini bu ilin yayından tez "Real"a buraxmayacağı bildirilir.

* * *

"Bavariya"da icarə əsasında çıxış edən "Real"ın futbolçusu Xames Rodriqes qış fasiləsində klubunu dəyişməyəcək. Kolumbiyalı futbolçu "Yuventus"dan təklif alsa da, Münhen təmsilçisində qalmağa qərar verib. Mövsümün ilk yarısında zədə səbəbindən cəmi 8 oyunda meydana çıxan 27 yaşlı yarımmüdafiəçi ən azı yaya qədər Bundesliqada çıxış etmək istəyir.

* * *

"Şalke"nin müdafiəçisi Naldo "Monako" klubu ilə müqavilə bağlayıb. 36 yaşlı futbolçu ilə 2020-ci ilin iyun ayına qədər razılıq əldə olunub. Bundan başqa knyazlıq təmsilçisi Cənubi Afrika Respublikasının "Orlando Payrets" klubunda çıxış edən Layl Fosteri, "Çelsi"dən isə Sesk Fabreqası heyətinə cəlb edib.



* * *

"Qalatasaray"ın futbolçusu Qarri Rodriqes karyerasını Səudiyyə Ərəbistanında davam etdirəcək.

İstanbul təmsilçisi 28 yaşlı yarımmüdafiəçinin transferi üçün "Əl İttihad" klubu ilə razılığa gəlib.

Səudiyyə Ərəbistanı təmsilçisi Rodriqes üçün "Qalatasaray"a 10 milyon avro ödəyəcək.

* * *

"Trabzonspor"un futbolçusu Burak Yılmazın "Beşiktaş"a keçidi rəsmiləşib. "Qara-qartallar" 33 yaşlı hücumçu ilə 2.5 illik müqavilə imzalayıb. "Beşiktaş" bu tranfser üçün qarşı tərəfə 1 milyon avro, Buraka isə illik 2.5 milyon avro ödəyəcək.

* * *

"Bavariya"nın futbolçusu Aryen Robben karyerasını "İnter"də davam etdirə bilər. 34 yaşlı yarımmüdafiəçinin agentlərinin Milan klubu ilə müqavilənin detallarının müzakirə etdiyi vurğulanıb. Onun klubu ilə müqaviləsinin müddəti iyunda başa çatır.

### "Qəbələ" qış fasiləsində ilk transferini reallaşdırıb

Futbol üzrə 2018-2019-cu il mövsümünün ikinci yarısının hazırlığına start verən "Qəbələ" klubu qış fasiləsində ilk transferini gerçəkləşdirib.

"Qırmızı-qaralar" Azərbaycan milli komandasının üzvü Anar Nəzirovu heyətinə qatıblar. Bundan əvvəl "Zirə"də çıxış edən 34 yaşlı qapıçı ilə 1,5 illik müqavilə imzalanıb.



Qeyd edək ki, 2010-2011-ci, 2012-2015-ci illər mövsümlərində də "Qəbələ"də forma geyən A.Nəzirov əyalət təmsilçisinin heyətində ümumilikdə 28 oyun keçirib. O, Azərbaycan Premyer Liqasında 25, Azərbaycan kubokunda isə 3 dəfə meydana çıxıb. Futbolçu karyerası ərzində "Kəpəz", "Turan", "Neftçi", "Standard" və "Sumqayıt"ın da heyətində çıxış edib. Qapıçı Premyer Liqada ümumilikdə 219 matç keçirib. Azərbaycan millisində 2012-ci ildə debüt edən qolkiper əsas komandanın heyətində dörd oyunda meydana çıxıb.

### "Avropa Liqası Muzeyi"ndə görüş

Xəbər verdiyimiz kimi, Bakıda UEFA Avropa Liqasına həsr olunmuş muzey fəaliyyət göstərir. AFFA-nın "Coca-Cola U-13 Liqası"nda çıxış edən futbol komandalarının üzvləri muzeyi ziyarət ediblər. Qeyd olunan komandalar üçün AFFA tərəfindən əyləncəli proqram təşkil edilib. Əvvəlcə, paytaxtın tanınmış məkanlarından birində yemək süfrəsi arxasında toplaşan kiçik yaşlı futbolçular daha sonra "Avropa Liqası Muzeyi"ndəki eksponatlarla tanış olublar.

Muzeydə AFFA tərəfindən digər yaş qruplarına aid komandalar üçün də analoji tədbirlər keçirilir.

### Eşitmə qüsurlu əlillərin Çempionlar Liqası turniri başa çatıb

Eşitmə qüsurlu əlillərdən ibarət komandalar arasında Almaniyanın Ştutqart şəhərində təşkil olunmuş futzal üzrə Çempionlar Liqası turniri başa çatıb. Təmsilçimiz "Ulduz" turnirdə keçirdiyi son iki oyunda qələbə qazanıb. Komandamız, əvvəlcə, Almaniyanın "Hildesheim" komandasını 6:3 hesabı ilə məğlub edib. 17-ci yer uğrunda keçirilmiş oyunda isə Hollandiyanın "Martinistad" klubu ilə görüşən "Ulduz" 3:1 hesabı ilə qalib gəlib.

# Dünya idmanı






## NBA "ulduz"larının matçı bu ay təşkil olunacaq

NBA və basketbolçuların həmkarlar ittifaqı "ulduz" oyunçuların bu ildə ilk matçını təşkil etməyi və televiziya ilə birbaşa yayımlanmasını planlaşdırır. Bu barədə "The New York Times" nəşri məlumat yayıb.

Nəşrin yazdığına görə, matçın 30 və ya 31 yanvar tarixlərində keçirilməsi nəzərdə tutulur.

Səsvermənin nəticələrinə əsasən, ulduzların matçında iştirak edəcək forvardların adları açıqlanıb. Siyahıya liderliyi "Leykers"in oyunçusu Lebron Ceyms və "Milyoki"nin basketbolçusu Yannis Adetkumbo edir. Hər iki basketbolçuya 1 milyondan artıq insan səs verib. Ceymslə bərabər ön xətdə oynayacaq Luka Donçiç ("Dallas") respondentlərdən 679 839, Kevin Dyurent ("Qolden Steyt") isə 659 968 səs toplayıb.

Məlumat üçün bildirək ki, NBA ulduzlarının növbəti matçı fevralın 17-də Şimali Karolinada təşkil ediləcək.

## 1 dəqiqədə 9 milyon dollar

Məşhur amerikalı boksçu Floyd Meyvezer 1 dəqiqədə 9 milyon dollar qazanıb.

Floyd Meyvezer yaponiyalı kikboksinq döyüşçüsü Tensin Nauskaua ilə görüşüb. Amerikalı idmançı matçın ilk raundunda rəqibini nokauta göndərib.

Floyd Meyvezer 1 dəqiqəlik döyüş qarşılığında 9 milyon dollar əldə edib.





## *Mariya Şarapova inamla irəliləyir*

Rusiyalı tennisçi Mariya Şarapova Çinin Şançjan şəhərində keçirilən turnirdə uğurla çıxış edir. Qeyd edək ki, turnirin mükafat fondu 750 min dollar təşkil edir.

"Böyük dəbilqə" turnirinin 5 qat qalibi Mariya Şarapova rəqibi Timya Baçinskini məğlub edərək ikinci dövrəyə adlayıb.

Yarışın dörddə bir finalına vəsiqə qazanmaq üçün rusiyalı raket ustası çinli idmançı Sinyoy Vanla görüşəcək.

## Ronaldo yenə də liderdir

"Globe Soccer Awards" versiyasına görə Kriştianu Ronaldo ötən ilin ən yaxşı futbolçusu adına layiq görülüb. Məlumat üçün bildirək ki, 2010-cu ildən təsis olunan "Globe Soccer Awards" mükafatı hər il təqdim edilir.




"Yuventus"un portuqaliyalı hücumçusu mükafatı Dubayda keçirilən mərasimdə alıb. O, həm də bu mərasimdə "İlin ən yaxşı qolu" nominasiyasında da mükafat alıb.

Portuqaliyalı hücumçu digər sahələrdə də liderliyini qoruyur. Belə ki, Kriştianu Ronaldonun "İnstagram" hesabını 150 milyondan çox insanın izlədiyi məlum olub. 32 yaşlı futbolçu hazırda adı çəkilən sosial şəbəkədə 150 milyondan çox izləyicisi olan yeganə insandır. "İnstagram"da izləyici sayına görə ikinci yerdə müğənni Selena Qomes (144,5 milyon), üçüncü yerdə isə müğənni Ariana Qrande (141,3 milyon) gedir.

Ronaldodan əlavə "İnstagram"da futbolçular arasında 100 milyondan çox izləyicisi olanlar Fransanın "PSJ" klubunun braziliyalı hücumçusu Neymar (108,9 milyon) və İspaniyanın "Barselona" klubunun argentinalı hücumçusu Lionel Messidir (105,1 milyon).

Futbol üzrə İngiltərə Premyer Liqasının 21-ci turunun "Kardiff Siti" ilə oyunu "Tottenhem"in futbolçusu Harri Keyn üçün əlamətdar olub.

London təmsilçisinin 3:0 hesabıyla qalib gəldiyi görüşün 3-cü dəqiqəsində rəqib qapısına yol tapan 25 yaşlı futbolçu karyerasında yeni rekord müəyyənləşdirib.

## Harri Keyn üçün əlamətdar oyun

"Opta" nəşrinin yaydığı məlumata görə, Keyn Premyer Liqada qarşılaşdığı 28 komandanın hamısına qol vurmağı bacarıb. O, indiyədək yalnız "Kardiff Siti"nin qapısına qol vura bilməmişdir ki, buna da son turda nail olub.

## Baş hakimi yumruqla vurdular

Futbol üzrə Türkiyə həvəskarlar liqasında qalmaqal baş verib.

A qrupu çərçivəsində keçirilən "Arqıncıkspor" - "Esnafspor" matçının əlavə vaxtında qonaq komandanın futbolçusu baş hakimi yumruqla vurub. Buna səbəb ədalət təmsilçisi Hakan Çamın "Esnafspor"lu Mustafa Çetinə qırmızı vərəqə göstərməsi olub. Ev sahiblərinin 2-0 hesabı ilə öndə olduğu qarşılaşmanın sonunda baş verən insidentdən sonra referi soyunub-geyinmə otağına keçməli olub. Hadisə ilə bağlı Türkiyə Futbol Federasiyası araşdırmalara başlayıb.

## Ən dəyərli 11 klub

Məşhur "Forbes" jurnalı dünyanın ən dəyərli 11 idman klubunun adını açıqlayıb.

Həmin klublar aşağıdakılardır:

1. "Dallas Kovboys" (Amerikan futbolu) - 4,8 milyard dollar
2. "Mançester Yunayted" (Futbol) - 4,1 milyard dollar
3. "Real" (Futbol) - 4,09 milyard dollar
4. "Barselona" (Futbol) - 4,06 milyard dollar
5. "Nyu York Yankees" (Beysbol) - 4 milyard dollar
6. "Nyu Enqland Patriots" (Amerikan futbolu) - 3,7 milyard dollar
7. "Nyu York Knicks" (Basketbol) - 3,6 milyard dollar

8-9. "Nyu York Giants" (Amerikan futbolu), "Los Anceles Leykers" (Basketol) - 3,300 milyard dollar

10-11. "Qolden State Varriors" (Basketbol), Vaşinqton Redskins (Amerikan futbolu) - 3,1 milyard dollar

## Mixael Şumaxerin 50 illiyinə həsr olunmuş sərgi açılıb

Maranelloda, "Ferrari" muzeyində Mixael Şumaxerin 50 illiyinə həsr olunmuş sərgi açılıb.

Sərgidə yeddiqat dünya çempionunun bütün "Ferrari" bolidləri, o cümlədən Mixaellə əməkdaşlıq şəraitində yaradılmış adi avtomobillər təqdim edilib.

Xatırladaq ki, Şumaxerin 50 illiyi münasibətilə virtual muzey şəklində xüsusi əlavə buraxılıb. Əlavədə Mixael Şumaxerin idarə etdiyi bolidlərin 3D-modellərinə baxmaq, onların çıxardığı səsləri dinləmək olar. Əlavəni yükləyən istifadəçilərə Şumaxerin çıxışlarının müfəssəl statistikası, rekordları və onun 2013-cü ildə yazılmış müsahibəsi təqdim olunur. Azarkeşlər Mixaelin Kölndəki sərgisinə, eləcə də uşaqlıqda Kerpendə məşq etdiyi kartinq trasına virtual səyahət etmək imkanı əldə edirlər.

Bu əlavə "Schumoji" adlı digər yeni əlavə ilə birlikdə buraxılacaq. İstifadəçilər sosial şəbəkələr üçün Mixaelin və onun Formula-2-də çıxış edən oğlu Mikin təsviri olan smayllardan istifadə edəcəklər. Ata Şumaxerin doğum günündə yükləmək üçün emodzili əlavə də buraxılır. Bütün gəlirlər "Keep Fighting" fonduna köçürüləcək.

---

Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətov və məktəbin kollektivi Şirvan Olimpiya İdman Kompleksinin direktoru İlham Səfərova, atası

**Əliağa Səfərovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

"Olimpiya dünyası" qəzetinin kollektivi Şirvan Olimpiya İdman Kompleksinin direktoru İlham Səfərova, atası

**Əliağa Səfərovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

---

"Olimpiya dünyası" qəzetinin kollektivi Mikayıl Nərimanoğluya, əzizi

**Simuzər xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19